www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 dekabr 2016-cı il Çərşənbə № 272 (6593) Qiymәti 60 qəpik


**Xəbər**

## Həbsxanalarda nə baş verir - son günlər 4 məhkum ölüb

yazısı səh.14-də

**Gündəm**

### Parlamentdə büdcə müzakirələri başladı



Baş nazirin və hökumət üzvlərinin iştirakı ilə 2017-ci il üçün xərclər açıqlandı; Mərkəzi Bank sədri sərt maliyyə siyasətinin davam edəcəyini dedi

yazısı səh.7-də

### Hərbi ekspertdən Bakıya sığınmaq istəyən erməni zabitlə bağlı açıqlama

yazısı səh.5-də

### Əsədlə bəşər barışır-Qərb mediasından ilginc iddia

yazısı səh.9-da

### Heydər Camal Almatıda dəfn edildi-Həmid Herisçinin xatirə yazısı

yazısı səh.10-da

### Pakistan və Türkiyə ilə ortaq hərbi birləşmə Qarabağa nə vəd edir?

yazısı səh.9-da

### Banklar borcluları kütləvi şəkildə məhkəməyə verir

yazısı səh.11-də

### Akif Çovdarovun oğluna sərt cavablar gəldi

yazısı səh.6-da

### Azərbaycan dollardan imtina edə bilməz-ekspert rəyləri

yazısı səh.12-də

### 4 nəfərlik ailənin aylıq yaşam norması - ölkəmizdə və dünyada

yazısı səh.15-də

### Xoruz illəri: Hitler məğlub olub, AXC hakimiyyəti süquta uğrayıb...

yazısı səh.14-də

## Rusiyanın 2017 ssenarisi - Türkiyə də prosesin içində

# KREMLİN YENİ QARABAĞ OYUNU - 5 RAYON SÖHBƏTİ TƏZƏLƏNİR

Qərb gözləmə mövqeyindəykən, Moskva bir əldə bir neçə "qarpız" saxlamağı planlayır və Ankaranı da razı salmağa çalışır ki...; ekspertlərin yaxın perspektivə proqnozları; Qarabağa FTX nəzarət edir?..




yazısı səh.8-də

# Eldar Mahmudov Namiq Abbasovla niyə düşmənçilik edib?

MTN-in sonuncu nazirinin Namiq Abbasovun qardaşını oğurlatması iddiası; N.Abbasov MTN-də birinci müavin olanda, E.Mahmudov hələ tələbə idi, amma...

yazısı səh.5-də



*Rauf Arifoğlu:*

**"Çovdarovun oğlunu danışdırmaq caizmi - bəzi suallara və gizli eyhamlara cavablar"**

yazısı səh.3-də



Əli Həsənov

**"Qaçqınkom" sədrindən qərar-güzəştlər ləğv olundu**

yazısı səh.6-da



**Tural Abbaslıdan Müsavat, AXCP və AMİP-ə sərt ittihamlar**

yazısı səh.3-də

# Ali Məhkəmə MTN-in həbs etdiyi şəxs barədə qərarı ləğv edib



## Prezident Rusiya daxili işlər nazirini qəbul edib

**Prezident İlham Əliyev Rusiya daxili işlər naziri Vladimir Kolokoltsevi qəbul edib. APA-nın məlumatına görə, görüşdə Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları, daxili işlər nazirlikləri arasında uğurla inkişaf etdiyi bildirilib, bu sahədə əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi qeyd olunub.**

Səfər zamanı daxili işlər nazirlikləri arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıqla bağlı məsələlərin müzakirə ediləcəyi vurğulanıb, əlaqələrimizin gələcəkdə daha da möhkəmləndiriləcəyinə əminlik ifadə olunub.

V. Kolokoltsev ölkələrimizin daxili işlər orqanları arasında əməkdaşlığa göstərdiyi diqqətə görə prezidentə minnətdarlığını ifadə edib. Azərbaycan-Rusiya-İran prezidentlərinin birinci Bakı Sammitinə toxunan V. Kolokoltsev sammitdə dövlət başçıları tərəfindən imzalanan Bəyannamənin qarşılıqlı faydalı əməkdaşlıq və birgə fəaliyyətlə bağlı məsələlərin müzakirəsi zamanı əlaqələrin inkişafı üçün əlavə stimul yaratdığını deyib.

Azərbaycan-Rusiya-İran prezidentlərinin birinci Bakı Sammitinin əhəmiyyətini yüksək qiymətləndirən prezident bu formatın artıq formalaşdığını və bunun həmçinin regionda təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi işinə istiqamətləndiyini deyib.

## Repetitorlarla müqavilə imzalanacaq



**Bakıda repetitorluq edən müəllimlərlə məktəb arasında fəaliyyət müqavilələrinin imzalanması nəzərdə tutulur. APA-nın xəbərinə görə, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva bildirib ki, bu ilin iyul ayında Nazirlər Kabineti məktəblərdə hüquqi və fiziki şəxslərlə birgə fəaliyyət müqavilələrinin bağlanmasına dair qərar verib.**

Onun sözlərinə görə, qərara əsasən, təhsil idarəsi hər hansı fiziki və hüququ şəxslə və üçüncü tərəf olaraq məktəblə birgə fəaliyyət haqqında müqavilə imzalayır:

"Bu müqavilə çərçivəsində təhsil sisteminə uyğun olan fəaliyyətlərin həyata keçirilməsinə icazə verilir. Repetitorluqla məşğul olan müəllimlərin məsələsinə gəlincə, bununla bağlı konkret məqsəd qarşıya qoyulmayıb. Amma yaxın gələcəkdə müəllimlərlə də birgə fəaliyyət müqavilələrinin imzalanması nəzərdə tutulur".

**M. Vəliyeva əlavə edib ki, yeni tədris ilindən məktəblərin fəaliyyətlərinə zidd olmayan fəaliyyətlər, müxtəlif idman, yaradıcılıq dərnəkləri təşkil edilib. Bu istiqamətdə artıq hüquqi və fiziki şəxslər tərəfindən idarəyə müraciətlərin olduğunu deyən M. Vəliyevanın sözlərinə görə, müqavilələr imzalanıb, fəaliyyətə başlanılıb:**

"Valideynlərin əlavə ödənişləri hesabına şagirdlərə məktəblərdə əlavə xidmətlər göstərilir. Xidmətlərin qiymətini idarə müəyyənləşdirir. Xidmət zamanı məktəbin yerləşdiyi ərazi, sahə, müəssisənin ümumi vəziyyəti, fəaliyyətinin növü nəzər alınır. Bunlara əsasən qiymətlərdə fərq olur".

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

**Ali Məhkəmə ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin həbs etdiyi şəxs haqqında həbs qərarını ləğv edib.**



APA-nın xəbərinə görə, bu barədə vəkil Adəm Məmmədov sosial şəbəkədə açıqlama yayıb. Vəkil bildirib ki, hüquqlarını müdafiə etdiyi Mətləb Mustafayev Cinayət Məcəlləsinin 228.1-ci (qanunsuz silah saxlama) maddəsi ilə təqsirləndirilərək, 2015-ci il aprelin 24-də Nəsimi Rayon Məhkəməsinin hökmü ilə 2 il müddətinə azadlıqdan məhrum olunub. Bakı Apelyasiya Məhkəməsi hökmü qüvvəsində saxlayaraq, şikayəti təmin etməyib.

Müdafiə tərəfinin kasasiya şikayətinə Ali Məhkəmənin hakimi Gülzar Rzayevanın sədrliyi ilə baxılıb, Bakı Apelyasiya Məhkəməsinin qərarı ləğv olunub.

Vəkilin bildirdiyinə görə, Mustafayev Mətləb Nəriman oğlu istintaqa məlum olmayan vaxtda və mənbədən qanunsuz olaraq odlu silah əldə etməkdə təqsirləndirilib. O, 2014-cü ilin sentyabrında MTN əməkdaşları tərəfindən saxlanılıb.

Vəkil hesab edir ki, Mustafayev Mətləb Nəriman oğlunun barəsində Bakı Apelyasiya Məhkəməsinin qərarı ləğv edilərək, cinayət işinə bəraətverici əsaslarla xitam verilməlidir.

Qeyd edək ki, M. Mustafayev Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin əməkdaşı olub. M. Mustafayevin MTN-də 31 il xidmət etmiş qardaşı, polkovnik Malik Mustafayev onun həbsindən bir neçə gün sonra özünü asaraq, intihar edib. MTN-in Antiterror Mərkəzinin sabiq rəisi Elçin Quliyev və onun müavini İlqar Əliyevin (təcridxanada intihar edib) Mətləb Mustafayevdən başqalarının əleyhinə ifadə almağa çalışdıqları bildirilir.

## Hava mülayimləşəcək

**Bakı və Abşeron yarımadasında dekabrın 7-də hava şəraiti dəyişkən buludlu, əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-qərb küləyi arabir güclənəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən APA-ya verilən məlumata görə, havanın temperaturunun gecə 0-2° şaxta, gündüz 4-7° isti, Bakıda gecə 0-2° şaxta, gündüz 4-6° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan yüksək 772 mm civə sütunundan 763 mm civə sütununa enəcək.

Nisbi rütubət 85-95 % təşkil edəcək.

## Jurnalistlərə mənzillər 2017-ci ilin yayında veriləcək

**"Jurnalistlərə mənzillər 2017-ci ilin yayında veriləcək".**

APA-nın xəbərinə görə, bunu millət vəkili, Mətbuat Şurasının sədri Əflatun Amaşov deyib. Millət vəkili bildirib ki, hazırda binada tamamlama işləri gedir: "Binanın mətbuat günü ərəfəsində təhvil verilməsi planlaşdırılır".

## Türkiyədə terror aktı törətmək istəyən iki qadın saxlanılıb

**Türkiyənin İzmir şəhərində avtovağzalda terror aktı törətmək istəyən iki qadın terrorçu saxlanılıb.**

"Report" "Haber7"yə istinadən xəbər verir ki, onlardan biri terrorçu Marksçı-Leninçi Kommunist Partiyasının üzvüdür.

Məlumata görə, terrorçular şəhərlərarası avtobusların dayandığı avtovağzalda partlayış törətməyi planlaşdırıblar.

## "Ali məktəblərdə namaz qılınması məqsədəuyğun deyil"-komitə sədri



**"Azərbaycan dünyəvi dövlət olduğundan dövlət müəssisələrində, eləcə də ali təhsil ocaqlarında namaz qılınmasını məqsədəuyğun saymıram".**

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycan Dövlət Neft və Sənaye Universitetində "Fitnə" filminin nümayişindən sonra tələbələrin sualını cavablandırarkən dövlət müəssisələrində və ali təhsil ocaqlarında namaz qılınmasının düzgün olub-olmamasına münasibət bildirərkən bildirib. ("Report")

O xatırladıb ki, İslamın 5 vacib şərtindən biri də namaz qılmaqdır: "Ancaq dövlət müəssisələrində və ali təhsil ocaqlarında dini ayin icra etmək olmaz. Çünki qanunvericiliyə görə, dini ayinlərin icrası yalnız dini məbədlərdə həyata keçirilməlidir. Yəni yəhudilər sinaqoqda, xristianlar pravoslav və katolik kilsələrində, müsəlmanlar isə məscidlərdə dini ayinləri icra etməlidirlər. Bu gün yalnız Bakı şəhərində 132 məscid var. Ona görə də istənilən şəxs məscidə gedib namazını qıla bilər. Dinimiz hər bir insana imkan yaradır. Əgər tədris vaxtı zöhr namazını icra etməyə problem yaranırsa, onda bunu qəzaya saxlamaq olar. Bununla da kimsə günah qazanmır. Təbii ki, namazı hansısa məkanda qılmağı qadağan etmirik. Lakin iş yerləri və ya təhsil ocaqları namaz qılmaq yeri deyil. Qanunvericiliyə görə də ali təhsil müəssisələrində dini ayinlərin icrasına zor tətbiq etmək, yaxud da məscidə gedib kiminsə qolundan zorla tutub bayıra çıxarmaq da qadağandır. Bu kimi çağırışlar edən varsa, məsələyə son qoymaq lazımdır".

## Rayonlara gedənlər, diqqət!

**Qış mövsümü ilə əlaqədar İsmayıllı, Ağsu və Göyçay rayonlarına hərəkət edən sərnişin avtobuslarının yolu dəyişdirilib. Bu barədə "Trend"ə Bakı Beynəlxalq Avtovağzalının sahə rəisi Məhəmməd Abdullayev məlumat verib.**

Sahə rəisi bildirib ki, avtovağzaldan həmin rayonlara gedən marşrut avtobusları Bakı-Şamaxı-Yevlax avtomobil yolu ilə deyil, Bakı-Qazax yolu ilə gedir: "Buna səbəb isə qış aylarında Ağsu dolaylarında avtomobillərin hərəkətinin çətinləşməsidir. Ona görə də artıq bir aya yaxındır ki, həmin marşrutların hərəkət istiqaməti dəyişdirilib".

## Seysmotektonik zonalar ciddi dəyişikliyə məruz qalıb

**Seysmoaktiv zonaların seysmogeodinamik şəraitinin öyrənilməsi məqsədi ilə zəlzələlərin proqnozlaşdırılması üzrə işlər davam etdirilməkdədir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Geoloji Kəşfiyyat Xidmətindən (MGKX) APA-nın sorğusuna cavab olaraq bildirilib ki, Mingəçevir-Şəmkir, Şamaxı-İsmayıllı və Abşeron periklinalı seysmotektonik bloklarında monitorinq müşahidələri yerinə yetirilir.

Qeyd olunub ki, geodinamik proseslərin fəallaşması və xarakteri ilə bağlı olaraq regional planda Böyük Qafqaz və Kiçik Qafqaz meqantiklinoriumlarında sıxılma gərginlik-deformasiya strukturları, Aşağı Kür çökəkliklərində və Naxçıvan seysmotektonik blokunda isə genişlənmə gərginlik-deformasiya strukturları xarakterik olub: "Bu regional strukturların daxilində həm sıxılma və həm də genişlənmə lokal strukturların formalaşması yuxarıda qeyd olunan və əsasən klassik zəlzələ ocaqlarında baş vermiş zəlzələlərin yaranması üçün generator rolu oynayıb. Son dövrlərdə Zaqatala-Oğuz və Şamaxı-İsmayıllı seysmoaktiv zonası nisbi geodinamik aktivliyi ilə seçilib. Mingəçevir-Şəmkir seysmoaktiv zonası digər zonallıqlara nisbətən stabil mərhələdə olub. Yalnız blokun cənub-qərb sərhədində Önkiçikqafqaz dərinlik qırılmasının kök hissəsi ilə əlaqədar zəif dinamik aktivlik müşahidə edilib. Abşeron periklinalı seysmotektonik blokunda məxsusi seysmiklik fon səviyyəsinə uyğun gəlsə də, Xəzər dənizində və qonşu Şabran-Siyəzən seysmoaktiv zonasında M2.5 maqnitudalı 18 zəlzələ təhlil edilib. Respublika ərazisində xəritələnmiş seysmotektonik zonalarda seysmohidrodeformasiya şəraiti zaman-zaman ciddi dəyişikliyə məruz qalıb, ümumi fonda çoxsaylı lokal sıxılma və genişlənmə strukturları qeyd edilib. Bu strukturlardan Oğuz-Şəki, Gəncə-Tovuz və Şamaxı-İsmayıllı strukturlarında gərginlik-deformasiyası daha intensiv olub".

YENİ MÜSAVAT
N 272 (6593) 7 dekabr 2016

**Sevinc Telmanqızının Ruslan Çovdarovla məlum müsahibəni necə çətinliklə, hansı diltökmələrdən sonra almasına mən və bütün kollektiv şahiddir. Ən ağır ittihamlarla mühakimə olunan MTN generalının oğlu hər gün atası ilə bağlı neqativ manşetlər verən qəzetə inanmırdı - inanmırdı ki, onun dedikləri olduğu kimi dərc olunacaq. Üstəlik, reportyorlarımız Çovdarovun kəndindən dönmüşdülər və oradan hazırlanan reportajlar ailəni də, kəndi də razı salmamışdı.**

**Rauf ARİFOĞLU**



# Çovdarovun oğlunu danışdırmaq caizmi - bəzi suallara və gizli eyhamlara cavablar

Ruslan Çovdarovla jurnalistimizin günlərlə davam edən dialoqlarının əksəriyyəti də yazışma şəklində olub və Ruslan Çovdarovun bizi necə qəzəblə suçlaması şrift informasiyası şəklində gözümüzdən keçib.

Sevinc xanım peşəkar jurnalist və həm də kökəncə gürcüstanlı olmasaydı, böyük ehtimalla, bu müsahibə alınmayacaqdı. Mən artıq əlimi üzmüşdüm və "olmursa olmasın", deyə, son rəyimi də bildirmişdim. Lakin Sevinc israr etdi, günlərlə yazışdı, danışdı, inandırdı, onun getdiyi məkana - kitabxanaya getdi, nəhayət, oxuduğunuz müsahibələr ortaya çıxdı. Yəni bu məsələdə Çovdarovları danışdırmaq üçün minnət-xahiş edən bizik. Marağımız vardı, Ruslan bir dəfə mediaya - Pərviz Həşimliyə danışmışdı və bizim təkrar nəşr etdiyimiz bu yazının tirajı onminlərlə İP idi...

İddia edirəm ki, bizim müsahibə də yaxşı alınıb, Sevinc xanımı təbrik edirəm. Çox sərt suallar verib, Çovdarova məhkəmə heyətinin soruşduqlarının bəzilərini oğlundan da soruşub. İstintaqın araşdırmadığı fraqmentə - həmkarımız Elmar Hüseynovun qətlə yetirilməsində Akif Çovdarovun roluna dair sualı isə həm cəsarət, həm də peşəkarlıq nümunəsidir. Adam, sadəcə, durub gedə bilərdi və müsahibə alınmazdı...

Nəticədə bu müsahibə üst-üstə, saytımıza 60 min unikal İP gətirib. Peşəkar çevrədən çoxlu təqdir almışıq; sosial şəbəkələrdə müzakirə, mübahisə yaradıb. Xəbərimiz özü xəbər olub - ən böyük media uğuru sayılır bu. Sən bir xəbər *(janrın fərqi yoxdur)* yazırsan və bu, günlərlə müzakirə olunur, proses yaradır... Bax, qəzetin, medianın işi həm də budur.

Lakin təəssüflə qeyd etməliyəm ki, gözləmədiyimiz halda, bəzi media təmsilçiləri bu məsələdə bizə dil uzadır. Cinayətlərdə suçlanan, bitib-getmiş, türmədən sağ çıxmayacağı bəlli olan bir suç generalına işləyirmişik. Nədənmiş əcəba, niyə belə "dərin" tikan batırırlar bizə. Səbəb işimiz - Çovdarovun oğlundan yaxşı, diqqətçəkən bir müsahibə götürmüşük. Və bu, birilərinə imkan verir ki, bizi suçlasınlar. Qəzetimizi bütün güc nazirliklərinə yaxın olmaqda suçlamaları anladım; bunun bir sakıncası da yoxdur, bəzən faydası da olur. Lakin bizi öldüsü-qaldısı məlum olmayan Eldar Mahmudovla və cəza evində nəfəsini oksigen balışından alan Akif Çovdarovla əlaqələndirmək zəkamız və qabiliyyətimizlə məzələnmək kimi bir şeydir. Hanı, bəs biz Eldar Mahmudova və MTN-ə qarşı mübarizə aparan DİN-in qəzeti idik? *(Bu cür yazanlardan birini ermənilərlə əlaqələrə və vətənə xəyanətə görə istintaqa çağırmışdılar, tuturdular, fağır, çox da qorxurdu; mən imkan vermədim, zamin durdum, çünki doğrudan da böhtan idi, adam ermənilərlə beynəlxalq layihələrdə iştirak etməkdən o yana getməmişdi. Lakin indi o hər fürsətdə bizə ünvansız böhtanlar yazmaqda, yaymaqda; Allah kömək olmuş elə yaxşı adamdı ki, pisliyi də mərhəmət doğurur).* Mənə nə deyirlər desinlər, qəzetə də; heç bir problem yoxdur. Lakin təşəkkürə layiq bir layihəyə imza atan Sevinc Telmanqızını da hədəfə almağa təşəbbüs göstərmək namərdlikdi. Və bunu zamanında bizimlə bir ofisin havasını udan adam edirsə, üzücüdür...



Hər kəs anlamalıdır ki, qəzetçinin, jurnalistin işi budur: biz kimlərisə danışdırırıq - bunlar siyasətçilər də ola bilər, sadə vətəndaşlar da, müttəhimlər, cinayətkarlar, terrorçular da... Və biz bu adamları özümüz üçün deyil, oxucular, cəmiyyət, tarix üçün danışdırırıq. Burada xoşa gəlməyən məqamlar təbii ki, olacaq; gözünüzün qarşısında böyük cinayətlərdə suçlanan MTN generalının oğlunun cavabları varsa, heç şübhəsiz, mübahisədə, müzakirə də yaranacaq və bu, normaldır. Lakin jurnalistə təşəkkür etməsəniz də, barı böhtan atmayın...

"Əl Qaidə" lideri bin Ladendən müsahibələr alan jurnalistlər və həmin müsahibələr hələ də arxivlərdə durur. Bizim müsahib Ruslan Çovdarov isə heç nə ilə suçlanmır, azadlıqdadır, feysdə yazılar yazır və çoxlu virtual dostları var. Onun tək suçu Çovdarovun oğlu olmaqdırsa, **BİZƏ DƏ ONU MƏHZ BU "SUÇU"** maraqlı etmişdi. Akif Çovdarovun oğlu olmasaydı, bizim onunla nə işimiz vardı ki? Zamanında Hacı Məmmədovun doğmalarını danışdırdıq, evinə, bağına getdik, reportajlar hazırladıq. İndi ölkədə ən böyük məhkəmə prosesi Çovdarovla bağlıdır. Biz də bu adamın nəyi var, hər şeyini üzə çıxarıb, ictimailəşdiririk, yaxınlarını danışmaq üçün günlərlə dilə tuturuq. Özü suallarımıza cavab yazsa, onları da dərc edərik. Sabah Eldar Mahmudovu tutacaqlar, onu mühakimə edəcəklər, eyni taktika ona və yaxınlarına tətbiq olunacaq.

Özümün rəyimə gəldikdə isə Ruslanın açıqlamaları atası barədə mənim fikirlərimi dəyişdirmədi. Heç birinə inanmadım. Hesab edirəm ki, Akif Çovdarov barəsində məhkəmədə irəli sürülən suçlamalar doğrudur, hələ əskikdir və mən Çovdarovla bağlı araşdırmaçı jurnalist Eynulla Fatullayevin ittiham və məlumatlarını paylaşıram, onlara inanıram. Çünki həmkarım bu barədə Çovdarov həbs olunmamışdan öncə, onun ən güclü zamanlarında dəfələrlə yazmış, danışmış, öz ittihamlarını tarix üçün sübuta çevirmişdi. Ona da inanıram ki, Akif Çovdarov və onun dəstəsi ilə bağlı daha bir mərhələ olacaq və orada Elmar Hüseynovun qətlə yetirilməsi fraqmenti də yer alacaq.

**O zaman üçün də jurnalist kimi fəaliyyət və missiyonumuzu davam etdirəcəyik.**

# Müsavat, AXCP və AMİP-ə qarşı sərt ittiham

## Bahalaşma ilə bağlı tədbirə qatılmamaqları bu partiyaları qınaq obyektinə gətirib

**12 müxalifət partiyasının dekabrın 3-də ADP qərargahında qiymət artımı ilə bağlı tədbir keçirməsi hələ ki bütün müxalifət cameəsində yeganə reaksiyadır. Lakin həmin tədbirdə də partiya liderlərinin çıxışları olsa da, sonrakı addımların nədən ibarət olacağı, belə tədbirlərin davamının olub-olmayacağı barədə qəti bir qərar qəbul edilməyib. Bu, cəmiyyətdə heç də birmənalı qarşılanmayıb. Bəziləri bu davranışı "bir atımlıq barıt" deyimi ilə eyniləşdirirlər.**



Tural Abbaslı

Sözügedən tədbirin təşkilatçılarından olan **AĞ Partiyanın sədri Tural Abbaslı** bildirdi ki, dekabrın 3-də keçirilən tədbirlə işin bitdiyini düşünmək yanlışlıq olardı. Bu, ilk tədbir olaraq başlanğıcdır. Bu cür tədbirlərin və aksiyaların davamı olacaq: "Həmin tədbiri təşkil eləyən partiyaların sədrlərinin KXCP qərargahında toplantısı oldu. Tədbirlərin, dəyirmi masaların davamlı olaraq keçirilməsi məsələsi, o cümlədən aksiyalar müzakirə edilir. Biz düşünmürük ki, bircə dəfə toplantı keçirdik və artıq hər şey yoluna düşdü. Niyyətimiz budur ki, tədbirlər istər qapalı iclas zallarında, istər meydanlarda etiraz formasına keçsin. Açıq meydanlarda mitinqlərə başlamaq da müzakirə olunur. Hesab edirik ki, belə tədbirlərə digər siyasi, ictimai qüvvələr, ictimai xadimlər də qatılmalıdır. Bu bir növü onların da mənəvi və siyasi borclarıdır. Ölkədə yaranmış durum hər kəsin həyatında özünü göstərir. Ona görə də hər kəs mövqeyini bildirməlidir. Qazın, elektrik enerjisinin tariflərinin qaldırılması hamının yaşayış tərzinə təsir edir, artıq hökumət üzvləri, nazirlər, Mərkəzi Bankın rəhbəri də açıq etiraf edir ki, ölkəmizə iqtisadi böhran təsir etməyə başlayıb, gələn il problem daha kəskin şəkildə qarşımızda dayanacaq. Belə bir vəziyyətdə kənarda dayanmaq heç də uğurlu taktika sayıla bilməz".

**T.Abbaslı bahalaşma ilə bağlı keçirilən tədbirə müxalifət düşərgəsindəki tanınmış partiyalardan Müsavat, AXCP və AMİP-in qatılmamağına belə münasibət bildirdi:** "Təəssüf ki, özlərini güclü lider adlandıran, özlərini güclü qurumlar hesab edən bəzi partiyalar siyasi konyukturadan kənara çıxa bilmirlər, "bu vəziyyətdən, filan tədbirdə iştirak edib-etməməkdən nə cür divident götürərəm" düşüncəsi ilə hərəkət edirlər. Onlar düşünməlidirlər ki, indiki məqamda hər şeyi xalqa görə etmək lazımdır, şəxsi çıxarları önə çəkmək lazım deyil. Adi vətəndaş kimi də qiymətləndirsək, həmin partiyaların davranışlarını müsbət qiymətləndirmək mümkün deyil. Onların davranışı "keçi can hayında, qəssab piy axtarır" prinsipinə dönüb. Yəni xalq uşağına sabah necə çörək alacağını düşünür, həmin siyasi qüvvələr isə müxalifətdə kim birincidir yarışını davam etdirirlər. Bu isə onların öz missiyalarına xəyanətləridir. Xalq onları müxalifət kimi qəbul edib, tanıyıb. Bunlar da o yeri işğal ediblər, lakin o yerin tələblərinə uyğun hərəkət etmirlər. Bu, kəskin şəkildə qınanmalıdır, deyilməlidir ki, bəs sən hansı gündə ortaya çıxacaqsan? Nə vaxt intriqaları dayandıracaqsan? Kabinet davalarınızı nə vaxt dayandırıb xalq üçün real nələrsə eləməyə başlayacaqsınız?! Şəxsən mən qiymət artımını ümummilli problem hesab edirəm. Bununla bağlı istənilən siyasi qüvvə istənilən tədbir dəvət edəsə mən iştirak edərəm. Korporativ siyasi maraqlardan çıxa bilməyənlər heç vaxt ciddi uğurlar əldə edə bilməyəcəklər və xalqa da heç bir xeyirləri dəyməyəcək. Xalq da hər şeyi görür, seçkilərdə bu qüvvələrin cavabı veriləcək".

Adıçəkilən partiyalardan Müsavat və AXCP müxalifət düşərgəsinin qiymət artımı ilə bağlı tədbirindən kənarda qalmaları barədə sualı cavablandırmadılar.

**AMİP-dən isə cavab verildi. AMİP katibi Elşən Mustafayev bildirdi ki, ADP qərargahında keçirilən tədbirə qatılmamaqları AMİP-in həmin gün keçirdiyi beynəlxalq konfransla bağlı olub:** "2-4 dekabr tarixlərində AMİP Bakıda böyük beynəlxalq konfrans təşkil etmişdi. Konfransa xaricdə müttəfiqlik etdiyimiz partiyalardan nümayəndələr də qatılmışdı. Partiyanın bütün rəhbərliyi bu konfransın təşkili, keçirilməsi ilə məşğul idi. Bakıdan və regionlardan gələn çoxsaylı üzvlərimizin də qatıldığı bu tədbirdə qazın, işığın qiymətlərinin artırılmasına münasibət bir daha bildirilib. AMİP nəinki qaz və işığın qiymətinin qaldırılmasına, ümumiyyətlə, baş verən bütün hadisələrə heç vaxt laqeyd qalmayıb və hər zaman operativ münasibətini bildirib. Hesab edirik ki, nəticəsindən asılı olmayaraq siyasi partiyaların belə məsələlərə münasibət bildirməsi, çıxış yollarını araması vacibdir".

**Etibar SEYİDAĞA**

**Dərbənd səfərimiz çərçivəsində yerli əhalinin yaşam tərzi, sosial durumu ilə də maraqlandıq. Narınqala ətrafında, İçərişəhəri xatırladan qala divarları arasında əsasən azərbaycanlılar yaşayır. Bu yerlərdə digər xalqların nümayəndələri də az deyil.**






# Nərənin kilosu 15 manat, hər doğulan uşağa görə 18 min manat - Dərbənddə gördüklərimiz...

## Dərbəndlilərin dilindən tez-tez eşitdiyimiz bir cümlə oldu: "Rusiya ana, Azərbaycan ata vətənimizdir"

### "Şeş-beş" "çahari pənc"...

Burada rus aksentinin dominantlıq etdiyi Bakı ləhcəsindəki danışığı hər addımbaşı eşidə bilərsən. Bu yerlərdə "Çaynaya" adlanan çayxanalarda nərd oynayanların əksəriyyəti də elə azərbaycanlılardır. İran sobalarının hesabına qızdırılan çayxanaların demək olar ki, hamısında internet var, Wi-Fi quraşdırılıb. İnternetin sürəti Azərbaycanda olandan fərqlənmir. Çayxanalarda yaşlı nəslin nümayəndələri ilə yanaşı gənclər də az deyil. Nərdtaxta üzərində taqqıldayan zərlərə gözlərini zilləyən, ara-sıra "şeş-beş" "çahari pənc" nidalarını uca səslə dilə gətirən yaşlılardan eşitdik, cavanlar isə gözlərini əllərindəki telefonlara zilləyib səssiz-səmirsiz "dünya torunda" qurdalanırlar. Ümumiyyətlə, buraların insanları Azərbaycana çox bağlıdırlar. Telefonlarına gələn zənglər üçün Azərbaycan musiqi parçalarını qeyd ediblər. Danışdırırsan, görürsən ki, adamlar təpədən-dırnağacan azərbaycanlıdırlar, amma 200 ilə yaxın Rusiyanın tərkibində yaşamaları dünya görüşlərində öz izlərini qoyub. Rusiyanın soyuq iqlimi xasiyyətlərinə hopub. Şimal qonşumuzun Cənub Federal Dairəsinə daxil olan Dərbənd ən müxtəlif xalqların mədəniyyətinin çuğlaşdığı, qaynayıb-qarışdığı məkandır.

### Qəzet Azərbaycan dilində, kiril əlifbası ilə çıxır

Dərbənd azərbaycanlıları Dağıstan Respublikasının ictimai-siyasi həyatında da özünəməxsus yer tutur. Ötən illər ərzində respublika ərazisində həyata keçirilən islahatların gerçəkləşdirilməsində də həmyerlilərimiz fəal olublar. İslahatlar ləng də olsa, aparılır. Yerli şərtlər azərbaycanlılara imkan verir ki, sosial-maddi cəhətdən özlərinin dolanışığını təmin etsinlər. Əlbəttə ki, işgüzarlıq, iş bacarmaq qabiliyyətləri də burada az rol oynamır. Bu gün Dərbənddə dövlət büdcəsindən maliyyələşən Azərbaycan dilli "Respublika" qəzeti dərc olunur. Oxucuları az olmayan mətbu orqan azərbaycandillidir, amma rus əlifbası ilə çıxır. Bəli, qəzetin özəlliyi ondadır ki, Azərbaycan dilindədir, kiril əlifbası ilə dərc olunur.

### Azərbaycandan göndərilən kitabları gömrükdən alan olacaq?

Məktəblərdə Azərbaycan dili tədris edilsə də, dərs vəsaitləri çatışmır. Azərbaycandan göndərilən kitablar da illərdir ki, Rusiya sərhədində ilişib qalıb. Məsələ Azərbaycan Təhsil Nazirliyi ilə Rusiya Təhsil Nazirliyi arasında həll edilməlidir, amma 4 ildir ki, bu iş müşkülə çevrilib. Kitablar sərhəddəki gömrük anbarında olduğundan azərbaycanlı uşaqlar kitabsız qalıblar. Bir nəsil beləcə ibtidai təhsilini başa vurub.

Ümumilikdə Dərbənd məktəbləri təmirlidir, kəndlərdə uşaq bağçaları var. Məktəblərdə istilik sisteminə xüsusi diqqət yetirilir, şagirdlərə gündə 1 dəfə pulsuz olaraq isti yemək verilir. İllər öncə Rusiyada təhsil sahəsində tətbiq edilməyə başlayan Vahid Dövlət İmtahanı (VDİ) məktəbləri bitirən azərbaycanlı şagirdlərin də işinə yarayıb. VDİ ümumilikdə 2001-ci ildən tətbiq olunmağa başlasa da, 2009-cu ilə qədər universitetlərə qəbul üçün əlavə imtahanlar da verilib. 7 ildir ki, Rusiyada şagird məktəbi bitirəndə verdiyi imtahan həm də onun universitetə qəbul imtahanıdır. Fənlər üzrə topladığı ballara uyğun universiteti seçir və həmin universitetin tələbəsi olur. Dərbənddəki həmyerlilərimiz deyir ki, VDİ-nin tətbiqindən sonra "təhsil mafiyası" işsiz qalıb, bu sahədə rüşvət və korrupsiya aradan qalxıb. Övladları sərbəst şəkildə imtahan verib universitetləri qazana bilirlər. Əgər əvvəllər məktəbi bitirən 20 şagirddən 5-i tələbə adını qazana bilirdisə, bu gün bu rəqəm 15-18 nəfərə qədər yüksəlib. Dərbənd məktəblərinin azərbaycanlı şagirdləri də Moskvadakı məşhur ali məktəblərdə təhsil ala bilirlər.









### Müəllimlər 15 min, polis 120 min publ alır

Müəllimlərin maaşları ilə də maraqlandıq. Öyrəndik ki, müəllimlər dərs saatlarından asılı olaraq 7-15 min rubl əmək haqqı alırlar. Təqaüdçülərə verilən məbləğ 15 min rubldan başlayıb 20 minə qədər ola bilər. Rusiyada həkimlər 18-20 min rubl, dövlət qulluqçuları ranqından asılı olaraq 25-50 min rubl, polis əməkdaşları da uyğun olaraq 80-120 min rubl məvacib alırlar. Təqaüdçülərə, əlillərə qaz-işıq haqlarının ödənişində güzəştlər var. Qazın 1 kubu 5 rubl, işığın 1 kilovat saatı 2 rubl 50 qəpikdir. Çörək 15, ət 300, yağ 350-450 rubladır.

### Uşaq doğ, 9 min dollar "Materinskiy kapital" al!

Dərbənd küçələrində Rusiyanın "VAZ" şirkətinin istehsalı olan ən son model maşınlar çoxluqdadır. Odur ki, dərbəndli tanış-bilişindən kimsə xarici maşın, ev alıbsa bunu ailəsində doğulan körpənin ruzisi hesab edə bilərsən. Hər halda, dərbəndli dostlar belə deyirlər. Dövlət hər yeni doğulan uşağa görə ailəyə "Materinskiy kapital" adlanan birdəfəlik yardım verir. Bu məbləğ yerli şərtlərə görə az deyil - 540 min rubl. Manata çevirsək 18 min manat, dollara çevirsək 9 min dollar. Bu məbləği alıb maşın və ya ev alırlar.

### Nərənin kilosu 15 manat!

Vaxtilə Dərbənd bazarlarında növbənöv nərə cinsli balıqlar satılırdısa, bu gün artıq nərəkimilərin satışı dayandırılıb. Ovuna da qadağa var. Odur ki, Dərbənd bazarlarında Xəzərin ləzzətli təamları qəhətə çıxıb. Müqayisə üçün qeyd edək ki, manatın kəskin devalvasiyasına qədər Dərbənd bazarlarında nərənin 1 kiloqramı 3 manatdan baha deyildi. Həmin günlərdə Bakı bazarlarında isə bu qiymətli balıq növünün kiloqramı 30-40 manata satılırdı. Dərbənddə nərə indi "kontrabanda"dır, piştaxta altından kilosunu 15 manata ala bilərsən.

### Dərbənddə qaraçıları azərbaycanlı bilirlər...

Dərbənd bazarları qarşısında dilənçilər də az deyil. Nə işdirsə, hamı da onları azərbaycanlı bilir.

Elə oradaca araşdırıb öyrənirik ki, dilənçi dəstələri Dərbəndə Azərbaycandan, əsasən Yevlaxdan gəlirlər. Burada ev tutub qalır, dilənməklə pul yığıb yaşayırlar. Ayda 1 dəfə sərhədi keçib yenidən geri qayıdırlar.

### Pulunu dəyiş, sərhədi keç!

Dərbənddə olduğumuz günlərdə manatın rus rubluna münasibətdə rəsmi kursu ilə faktiki kursunu da öyrənmək qərarına gəldik. Burada hər addımbaşı mübadilə məntəqələri yoxdur. Heç olmayıb da, deyəsən. Cibinizdəki pul dollar və ya manat şəklindədirsə və rubla dəyişmək istəyirsinizsə, bunun üçün ən yaxşı yer bazarların qarşısıdır. Və ya sərhədi keçənə qədər pulunuzu rubla dəyişməkdir. Dəllallar da əsasən azərbaycanlılar və ləzgilərdir. Dərbəndlilər rus puluna "rüblə" deyərlər. Elə qarşımıza çıxan dəllallar da istisna olmadılar. Öyrəndik ki, rəsmi məzənnəyə görə 1 manat 36 rubldursa, dəllallar 34 rubl olmaqla dəyişirlər. Dollar mübadiləsi zamanı da təxminən eyni qaydalar işləkdir. 1 manat 34 rubl, 1 dollar 64 rubl hesabı ilə mübadilə edilir. Rəsmi kursla dəyişən yoxdur, axtarma, tapmayacaqsan...

### Niyamməddin Musayevin konsertinə düşmək dava-dalaşa qədər böyüyə bilər

Həmyerlilərimizin Azərbaycandan gözləntilərini, istəklərini və giley-güzarlarını da yazaq.

Azərbaycanı varlı ölkə hesab etdiklərindən Dərbənddə ölkəmizin kapitalı hesabına müxtəlif zavodların, fabriklərin açılmasını istəyirlər. Azərbaycandakı reallıqlardan əksərən bixəbər olduqlarından paytaxt Bakı, yeni tikililər, bahalı maşınlar haqda ağızdolusu danışırlar. Dərbənddəki mədəniyyət ocaqlarının təmirinə ayrılan vəsaitlərin artırılmasını, Nizami Gəncəvinin adını daşıyan parkın təmir edilməsini də çox istəyirlər.

Azərbaycan haqda əsasən telekanallarımız vasitəsilə məlumat aldıqlarından şou-biznes əhlini də adbaad tanıyır, ifalarına böyük diqqətlə qulaq asırlar. Dekabrın 25-də Dərbənddə Niyaməddin Musayevin konserti olacaq. Bəri başdan deyək ki, həmin konsertin xərci artıqlaması ilə ödənilib. Çünki dərbəndlilərin Azərbaycan müğənnilərinin ifalarına diqqəti hədsizdir. Konsertə bilet almaq üstündə hətta dava da düşə bilər. Hətta Azərbaycanda elə də tanınmayan müğənnilərin ifalarını da dərbəndlilər böyük maraqla dinləyirlər. Həmyerlilərimiz bayramlar, xüsusən Novruz bayramı ərəfəsində azərbaycanlı müğənnilərin Dərbənddə konsert proqramı ilə çıxış etmələrini istəyirlər.

### Gömrük + sərhəd = biabırçılıq!

Giley-güzar əsasən sərhəd-gömrük-keçid məntəqələrində tətbiq olunan qaydalar, saatlarla növbələrdə dayanmaqla bağlıdır. Rus nömrə nişanlı avtomobillərlə Azərbaycan ərazisinə keçmək üçün maşının markasından asılı olaraq bir neçə min dollara bərabər məbləği girov qoymaq lazım gəlir. Bu da hər kəsin cibinə uyğun deyil. Odur ki, gediş-gəliş xeyli çətinləşib. Rusiya pasportu daşıyan azərbaycanlı öz maşını ilə tarixi vətəninə gələ bilmir. Bu da gediş-gəliş xərclərini bahalaşdırır. Sərhədçilərin, gömrükçülərin iş metodları da dözülməz həddədir. Bu, həm Azərbaycan, həm də Rusiya tərəfində belədir. Naz-qəmzə, etinasızlıq, saymazyana münasibət var bu sahələrin qulluqçularında. Sanki bu adamları zorla iş yerlərinə sürgün ediblər. Digər tərəfdən də qulluq mövqelərinin verdiyi səlahiyyətlərdən sərhəd aşanları tapdamaq üçün eninə-uzuna istifadə etməkdən də ləzzət alan var aralarında. Bu da haqlı narazılıqların yaranmasına gətirib çıxarır. Normalda 4-5 dəqiqəyə aşılmalı sərhədi keçmək üçün azı 2 saat gözləmək lazım gəlir. Bu biabırçılığa nə vaxt son qoyulacağı da bilinmir.

***

**Dərbəndlilərin dilindən tez-tez eşitdiyimiz bir cümlə də "Rusiya ana, Azərbaycan ata vətənimizdir" oldu. Özünəməxsus qiymətləndirmədir, real durumun göstəricisi də hesab etmək olar. Amma ana axıra qədər analıq etmir, ata da ögey münasibətini gizlətmir...**

❑ **"Yeni Müsavat"ın reportyor qrupu**

YENİ MÜSAVAT
N 272 (6593) 7 dekabr 2016

# Eldar Mahmudov Namiq Abbasovun qardaşını niyə oğurladıb?

## Sabiq nazirləri düşmən edən səbəblər: N.Abbasov MTN-də birinci müavin olanda, E.Mahmudov hələ tələbə idi...



Eldar Mahmudov



Namiq Abbasov

**Keçmiş milli təhlükəsizlik naziri Namiq Abbasovun qardaşı Rafael Abbasov ləğv edilmiş MTN-in keçmiş rəhbərliyinin formalaşdırdığı mütəşəkkil cinayətkar qruplaşma tərəfindən oğurlanıb və aylarla məruz qaldığı işgəncə nəticəsində ölüb. Bu sensasion məlumatı hazırda Avropada mühacirətdə olan keçmiş MTN zabiti Ramin Nağıyev contact.az saytına açıqlamasında deyib.**

Ramin Nağıyevin bildirdiyinə görə, 2004-2010-cu illər ərzində Azərbaycanda çoxlu sayda biznesmen, imkanlı adamlar, hüquq-mühafizə orqanlarının əməkdaşları, dövlət məmurları MTN rəhbərliyinə yaxın qruplaşma tərəfindən oğurlanıb. Onların azadlığa buraxılması üçün böyük məbləğdə pul tələb ediblər. Konkret məbləğ alınandan sonra oğurlananlar buraxılıb. Keçmiş MTN zabiti deyib ki, oğurlanan şəxslərdən bir çoxu məruz qaldıqları işgəncələr nəticəsində şikəst geri qaytarılıblar.

“Oğurlananlardan 20-yə yaxınının adları o dövrün mətbuatında dərc edilib. Onların arasında keçmiş milli təhlükəsizlik naziri Namiq Abbasovun qardaşı Rafael Abbasov da var idi. Lakin bu barədə indiyədək heç kim danışmayıb. Oğurlanandan sonra 6 ay ərzində Rafaeli zirzəmidə saxlayıb işgəncə veriblər. Nəticədə onun ayağında qanqrena yaranıb. Azad olunandan sonra göstərilən tibbi müdaxiləyə və aşağı ətraflarının kəsilməsinə baxmayaraq Rafael Abbasov bir müddət sonra vəfat etdi”-Ramin Nağıyev bildirib.

Keçmiş MTN zabiti deyib ki, oğurlananların bir qismi indiyədək qorxulardan başlarına gələnləri danışmağa cəsarət etmir. O cümlədən bir vaxtların qüdrətli milli təhlükəsizlik naziri Namiq Abbasov da qorxusundan susur...

Virtualaz.org saytı isə iddia edir ki, Rafael Abbasov 2000-ci illərin ortalarında tikinti biznesi ilə məşğul olub, Bakının Yasamal rayonunda, “Qanlıgöl”ün ətrafında çoxsaylı yeni yaşayış binaları inşa edib. “Onun oğurlanması və aldığı işgəncələr nəticəsində ayaqlarının kəsilməsi, daha sonra vəfat etməsi barədə indiyədək heç vaxt mətbuatda yazılmamışdı. Bu faktı açıqlayan Ramin Nağıyev özü Namiq Abbasova yaxın kadr hesab edilirdi” deyə, xəbərdə bildirilir. Qeyd edək ki, uzun illərdir Fransada siyasi mühacir həyatı yaşayan MTN-in keçmiş zabiti bundan əvvəl də qalmaqallı iddiaları ilə yadda qalıb.

Namiq Abbasov 1977-ci ildən təhlükəsizlik orqanlarında fəaliyyətə başlayıb. 1979-cu ildə SSRİ DTK-nın Ali Məktəbini bitirib şöbə rəisinin müavini, şöbə rəisi, Azərbaycan SSR DTK sədrinin müavini kimi vəzifələrdə işləyib. 1992-ci ildə Azərbaycan milli təhlükəsizlik nazirinin müavini təyin edilib. Daha sonra nazirin birinci müavini vəzifəsinə irəli çəkilib. Heydər Əliyev 1995-ci ildə N.Abbasovu Nəriman İmranovun yerinə nazir təyin edib. N.Abbasov 1995-ci ilin mart ayından 2004-cü ilin iyul ayınadək milli təhlükəsizlik naziri vəzifəsində işləyib, general-polkovnik hərbi rütbəsinə qədər yüksəlib.

Nazir postundan azad ediləndən sonra o, 2004-cü ilin 16 dekabr tarixindən 2012-ci il oktyabrın 31-nə kimi Azərbaycanın Özbəkistandakı səfiri postunda çalışıb. Səfir vəzifəsini tərk edəndən sonra təqaüdə çıxıb.

***

N.Abbasovla Eldar Mahmudovun münasibətləri haqda birmənalı danışmaq mümkün deyil. Çünki onların ranqları çox fərqli olub. N.Abbasov qüdrətli və nüfuzlu bir quruma birinci müavin təyin ediləndə (1992) E.Mahmudov DİN-in Narkotiklərlə Mübarizə İdarəsində rəis müavini işləyirdi, Bakı Dövlət Universitetində isə qiyabi hüquq təhsili alırdı. Üstəlik, N.Abbasov vəzifəsindən çıxarılsa da, o yenə dövlət görəvlisi, diplomat idi.

R.Nağıyev hadisənin konkret hansı ildə baş verdiyini dəqiqləşdirmədiyi üçün N.Abbasova bu qəzəbin səbəblərini axtarmaq da çətinləşir. Mümkündür ki, N.Abbasovun qardaşı necəsə MTN-in toruna düşüb və belə görünür ki, onu xilas etmək hətta N.Abbasov kimi bir nüfuzlu şəxsin imkanı xaricində olub.

**N.Abbasov MTN-də baş verən hadisələr üzə çıxdıqdan sonra bu məsələyə çox ehtiyatlı münasibəti ilə yadda qalıb.** “Milli Təhlükəsizlik Nazirliyində baş verən bu hadisələrlə bağlı çıxış etməyim məsləhət deyil. Məhz ona görə ki, mən MTN-dən getdim, o, (Eldar Mahmudov-red.) gəldi. Sonra bu qədər hadisələr oldu. Mənim danışmağım oradan getdiyim üçün incimiş adamın çıxışı kimi anlaşılacaq. Bu barədə danışmağı lazım bilmirəm. Müsbət də nəsə deyə bilmərəm. Bu barədə mən yox, kənar adamlar danışsa, doğru olar. Hadisələr sovuşana, tamam sakitləşənə qədər qəti surətdə çıxış etməyəcəm. Bax o zaman nəsə bir rəy bildirə bilərəm” deyə, o bildirib.

**MTN ləğv edildikdən sonra isə N.Abbasov yenə də qısa danışmışdı:** “Milli Təhlükəsizlik Nazirliyinin (MTN) ləğv edilməsi dövlət başçısının qərarıdır. Bu qərara hörmətlə yanaşıram. Bu sahədə yeni addımlar atılır. Hələ yol gedilir. Bir ilə, iki ilə, üç ilə bilinəcək ki, hər şey yerində olubmu?! Ona görə də zamanı gözləmək lazımdır. Başqa rəy bildirməyə lüzum görmürəm”.

N.Abbasovun hazırda harada olduğuna gəlincə, məlumtlara görə, səfir vəzifəsini tərk edəndən sonra o, əsasən Bakıdakı bağ evində qalır.

❑ ORXAN

# Hərbi ekspertdən Bakıya sığınmaq istəyən erməni zabitlə bağlı açıqlama



## Üzeyir Cəfərov: “Yaxın günlərdə o zabiti ya həbs edəcəklər, ya da...”



**Ermənistan ordusunun zabiti Norayr Georgiyeviç Minosyanın haqqın.az saytının müxbiri Vahan Martirosyana Azərbaycan tərəfə keçməsinə kömək üçün etdiyi müraciət son günlərin əsas müzakirə mövzusu oldu. Erməni zabitin müraciətinə mövqelər müxtəlifdir.**

Çoxları 6 ay həbsdə olduqdan sonra azadlığa çıxsa da, ölkəsində təqib olunan və nəticədə Soçiyə pənah aparan Minosyanın müraciətinin arxasında hiylə olduğunu düşünür. Hətta burada Ermənistanın hakim dairələrinin əlinin olduğunu iddia edənlər də var. Gələcəkdə ölkəmizə qarşı bu kartdan istifadə ediləcəyini deyənlər də var.

Bir düşmən ölkənin hərbçisinin ərazilərini işğal etdiyi ölkəyə sığınması üçün etdiyi cəhd də birmənalı qarşılanmır. Azərbaycanlı zabitlərin Minosyanın atdığı addıma münasibətləri sərtdir.

**Hərbi ekspert Üzeyir Cəfərov hesab edir ki, erməni zabiti Azərbaycan tərəfə keçmək istəsəydi, çoxdan keçərdi:** “Bu şəxsi cəzalandırmaq istəyirlər, bunun üçün onu sıxışdırırlar. Mesaj vermək üçün demək istəyir ki, Azərbaycan tərəfə keçmək istədiyimə görə məni ölümlə hədələyirlər. Bu qeyri-ciddidir. Əgər keçmək istəyirsənsə, keç və fikirlərini əsaslandır. Ermənilər şou düzəltməyi xoşlayırlar. Bunun üçün addımlar atırlar, biz o addımlara aldanmamalıyıq. Ermənilərin bundan istifadə etmələrinə imkan verməməliyik. Bundan öncə də bir erməni ailəsi var idi, ölkəmizə gəldi, yüksək səviyyədə qarşılandılar, bir neçə il Azərbaycanın çörəyini yedilər, suyunu içdilər. Hər şey onlar üçün gözəl idi, gözəl şərait onlara yaradılmışdı. Ermənistana təhvil verəndən sonra onlar erməni kanallarında peyda oldular və Azərbaycanı qaralamağa başladılar. Bu baxımdan, düşünmürəm ki, erməni zabiti Azərbaycana keçmək istəyir. O yalnız bunu deyə bilərdi ki, məni üçüncü ölkəyə keçirmək üçün kömək edin. Bunu sakit şəraitdə də edə bilərdi. Bu təbliğat baxımından müsbətdir. Amma hesab edirəm ki, bizim mətbuat son dərəcə ehtiyatlı və diqqətli olmalıdır. Ən azından o zabiti sakitcə ölkəmizə keçirib, onun bilgilərindən istifadə edə bilərdik. Təəssüf ki, artıq bu məlumat ictimailəşib. Yaxın günlərdə o zabiti ya həbs edəcəklər, ya da qondarma ittihamlarla cinayət işi açacaqlar. Bununla da məsələ yekunlaşacaq. Bizim yeganə uğurumuz odur ki, Ermənistanda vəziyyətin nə qədər ağır olduğunu, hətta nəticədə erməni zabitlərin belə ölkəmizə keçmək istədiklərini dünyaya göstərəcəyik. Bütün hallarda son dərəcə diqqətli olmalıyıq. Düşmənin ən xırda addımından belə istifadə etməliyik. Məlumatın şok effektli olması ilə yanaşı, biz çox əlverişli bir məqamı əldən qaçırmış olduq”.

Ü.Cəfərov erməni zabiti gözləyən təhlükələrdən də söz açdı: “Minosyan onu gözləyən təhlükələrin fərqindədir. Bu adam çox qəşəng bilir ki, vəziyyəti o qədər də yaxşı deyil. Bir daha deyirəm, əgər o Azərbaycana keçmək istəyirdisə, bunun üçün həmyerlisi Martirosyanla əlaqə yaradırdısa, o zaman Martirosyan necə ölkəmizə rahat keçə bilmişdisə, bu yollarla o da rahat şəkildə Azərbaycana gələ bilərdi. İstənilən halda zabit həyatda hər şeyə hazır olmalıdır. Amma onun bu addımı şou xarakterlidir. Başqa bir ölkəyə getmək üçün bəhanə axtarır. Orada Azərbaycan faktorundan istifadə edib. Səhəri gün onu həbs edəndə Azərbaycanın adı hallanacaq ki, Azərbaycan tərəfə keçmək istəyirdi, lakin Azərbaycan ona lazımi köməkliyi etmədi. Bu, erməni hiyləsinin ustalıqla həyata keçirilmiş variantıdır. Zabit düşmən tərəfə keçməməlidir. Çünki ən azından bilir ki, onu ya öldürə bilərlər, ya da öz ölkəsində vətənə xəyanətdə ittiham olunar. Ermənilərin həyata keçirmək istədikləri bu hiylədə erməni zabitin uduşu daha çoxdur. Əgər mətbuat və hüquq-mühafizə orqanları birlikdə işləsəydilər, bunun effekti daha çox olardı. Erməni hakim dairələrinin burada əllərinin olduğunu da istisna etmək olmaz. Hər şey mümkündür. Ermənilərdə heç vaxt səmimiyyət olmayıb. Yaşadığımız faciələrin fonunda iki erməninin gəlib Bakıda nəyisə dillərinə gətirmələri yaralarımızı sağaltmır. Əgər onlar beynəlxalq tribunadan bu həqiqətləri dilə gətirsəydilər, o zaman onların səmimiyyətinə haradasa inanmaq olardı. Açığı, səhəri gün onların adından Azərbaycana qarşı bəyanatlar səslənsə, təəccüblənmərəm. Bu, erməni xisləti, təbiyəsidir”.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 272 (6593) 7 dekabr 2016

**Ləğv edilmiş MTN-in hazırda həbsdə olan generalı Akif Çovdarovun oğlu Ruslan Çovdarovun "Yeni Müsavat"a verdiyi müsahibə ciddi rezonans doğurub. Xüsusən də onun jurnalist Aqil Xəlilin döyülüb bıçaqlanması, eləcə də Elmar Hüseynovun qətli ilə bağlı dedikləri oxucularda narazılığa səbəb olub. R.Çovdarovun A.Xəlil barədə dediklərini yada salaq:**



# Akif Çovdarovun oğluna sərt cavablar gəldi

"Birincisi, Akif Çovdarov MTN-də yüksək vəzifədə olan adam idi. Polkovnik idi onda. Aqil Xəlilsə onda heç jurnalist deyildi, "stajor" idi. Yəni siz nə dərəcədə ağlabatan hesab edirsiz ki, MTN-in polkovniki, canlı-cəsədli adam düşsün jurnalistin dalınca, onu tutub döysün? Bu, mümkün idimi, sizcə? Orda təhlükəli hansı hadisə var idi? Yazırdılar ki, Akif Çovdarov "Zeytunluq"da torpaqlar alır. İstintaq həmin vaxt da araşdırdı. Gedin siz də maraqlanın. Akif Çovdarovun adına Zeytunluqda torpaq sahəsi olubmu, varmı? Aqil Xəlillə bağlı hadisəni mən jurnalist fantaziyası hesab edirəm. Populyarlaşmaq, süni ajiotaj yaratmaq üçün atamın adından istifadə etdilər. Aqil Xəlilin bıçaqlanmasına gəlincə, əgər gerçəkdən elə bir şey olsa, indi cinayət işində bu hadisənin də adı olardı. Əgər o, gerçəkdən bıçaqlanmışdısa, gəlib şikayət edərdi".

**Hazırda Londonda təhsil alan Aqil Xəlil "Yeni Müsavat"a R.Çovdarovun onun barəsində, ümumən isə bu hadisə ilə bağlı dediklərinə rəy bildirdi. Müsahibimiz dedi ki, onun üçün Çovdarovların nə deməsi həqiqətən də maraqlı deyil:** "Ortada fakt var, video var. İnsan nə qədər arsız olar ki, bunları dansın. Vaxtımın bir saniyəsini belə onlara "həsr etdiyimə" çox təəssüflənirəm. Sadəcə, jurnalist həmkarıma hörmət olaraq sualları cavablandırıram. Tək onu deyə bilərəm ki, o zamanlar bir qanqsterin əlindən öz ölkəmdə haqlarım tapdanaraq, ölümlə mübarizə aparırkən, həmin o Çovdarovun oğlu Londonda atasının və hökumətin hesabına kef edirdi. Təsadüfə baxın ki, hazırda Londonda təhsilim və karyeramı davam etdirirəm. Və üstəlik, kef də edirəm. Amma onlardan fərqli olaraq, nə atam qatildir, nə də rejimin quluyam. Baxın, taleyin əsl möcüzəsi budur! Çəkin cəzanızı! Mən bir də bu mövzuya qayıtmaq istəmirəm".

**Tanınmış jurnalist Eynulla Fətullayev isə elə müsahibənin ilk hissəsi yayımlananda R.Çovdarovun dediklərinə etirazını bildirmişdi. Müsahibə tam yayımlanandan sonra isə ondan bir daha R.Çovdarovun atası ilə bağlı dediklərinə münasibət öyrənmək istədik. Müsahibimiz dedi ki, 2005-ci ildən Azərbaycandakı bütün quldurluq və əks-sədalı cinayət hadisələri, insan oğurluğu, Bakı şəhərində biznesmenlərin başına torba keçirilib, MTN-in zirməmisinə aparılması olayları A.Çovdarovun adı ilə bağlıdır. E.Fətullayev dedi ki, A.Çovdarov Hacı Məmmədovdan fərqli olaraq bunu leqallaşdırmışdı:** "Sonrakı proseslərdən məlum oldu, Hacı Məmmədova heç kim himayədarlıq etmirdi. Əməlləri üzə çıxandan sonra zərərsizləşdirildi. Amma Akif Çovdarov bunu birbaşa rəhbərinin göstərişi ilə həyata keçirirdi. O, bütün bu cinayətləri leqallaşdırırdı. Onun şəxsi zirzəmiyə ehtiyacı yox idi. Hacı Məmmədov mütəşəkkil cinayətkar qrup yaratmışdı. Bunu DİN qismində yox, qanqster qismində həyata keçirirdi. Akifsə bunu MTN generalı kimi həyata keçirdi".

**E.Fətullayev dedi ki, onun şəxsən tanıdığı 30-40 tanınmış biznesmen zamanında başına torba keçirilərək MTN-ə aparılıb:** "Akif Çovdarovu bu məmləkətdə oğlundan başqa müdafiə edən şəxs tapılmaz. Ölkədə bu cür hadisələr yaşanır, törədilirsə, Ruslan Çovdarovun bir şeydə bəxti gətirib ki, Azərbaycan hüquqi dövlətdir, hüquq-mühafizə orqanları Azərbaycanda kriminogen duruma nəzarət edir. Azərbaycan Ruslan üçün təhlükəsiz dövlətdir. O, Azərbaycandan kənarda özünü təhlükədə hiss etməlidir. Ölkədə minlərlə insan var ki, ondan qisas almaq istəyərdi. Akif Çovdarov onlardan halal mallarını-pullarını alıb, yaxınlarının canlarını alıb. Biz hamımız Azərbaycanda yaşayırıq, bura Yupiterdən köçməmişik".

**E.Fətullayev dedi ki, A.Çovdarovun guya "günah keçisi" elan edilməsi ilə bağlı ailəsinin sərgilədiyi mövqe də yersizdir. Müsahibimizin sözlərinə görə, MTN-in 19 generalı həbs olunub. Bundan başqa, E.Fətullayev niyə məhz diqqətin A.Çovdarovun üzərində cəmləşməsinə də aydınlıq gətirdi:** "Çünki bu adam Azərbaycanda vətəndaş cəmiyyəti fəallarına, siyasi aktivistlərə qarşı bu əməlləri edib. Əsasən siyasi olaylarla, ictimai fəaliyyətlə məşğul olan insanlara qarşı cinayətlər törədib. MTN-in digər generalı Sübahir Qurbanov da cinayətlər törədib. Amma o, bunu daha çox elə insanlara qaşı edib ki, onlar bu haqda açıq danışmağa qorxublar. Çovdarovdan narazı olan yüzlərlə insanın ifadəsi var. Onlar deyirlər ki, biz Eldar Mahmudova müraciət edəndə onları Akif Çovdarova yönləndirib. Çovdarov Eldar Mahmudovun şəxsi cəlladı olub".

**E.Fətullayev R.Çovdarovun atası barədə dediyi "atam qanunsuz narkotik dövriyyəsinə qarşı mübarizə aparıb" sözlərinə də aydınlıq gətirdi. Dedi ki, A.Çovdarovla E.Mahmudovun kriminal uyğunlaşması həmin vaxtdan başlayıb:** "Onların hər ikisi DİN orqanlarından xaric olunub. Hilal Əsədov, Eldar Mahmudov və Akif Çovdarovu o zaman kriminal maraqlar birləşdirmişdi".

**Müsahibimiz hesab edir ki, R.Çovdarovun "əgər atamın Elmar Hüseynovun və Aqil Xəlilin işində əli olsaydı, istintaq bunu da üzə çıxarardı" sözləri isə reallıqdan uzaqdır. E.Fətullayevin sözlərinə görə, istintaq hələ davam edir, məhkəmə isə hazırda bir epizod üzrə gedir:** "Digər qətllərlə bağlı istintaq gedir. Biz bilmirik ki, hansı hadisələr açılacaq. Bir ilə yaxındır ki, bu qrup ifşa olunub. Şəxsən Akif Çovdarov onları qətlə yetirməyib. Amma o, bu qətllərin təşkilatçısıdır. Biz bilmirik ki, bu cinayətkarlar birbaşa həyatdadır, ya yox. Mən əminəm ki, məsələ bitmiş sayılmır. Çünki bir çox suallar var. Bu insanların antidövlət fəaliyyəti barədə də xeyli məqamlar var və üzə çıxacaq".

**Jurnalist dedi ki, A.Çovdarovun guya dövlətə, prezidentə sadiq olması barədə oğlunun dedikləri də cəfəngiyatdır. Müsahibimizin fikrincə, bunca quldurluq edən şəxs Azərbaycan insanlarını hakimiyyətə qarşı yönəldib, özü də dövlətin generalı ranqında:** "Bununla da insanların nifrətini hakimiyyətə qarşı yönəldirdi. Budur prezidentə sədaqət? Prezidentə sadiq şəxs ilk növbədə vətəndaş cəmiyyətində olan narazılığı müəyyən mənada öz fəaliyyəti ilə azaltmalıdır. Onlar Azərbaycanın biznes elitasını, sahibkarlıq zümrəsini məhv etdilər. Həyasızlığın da həddi-hüdudu olmalıdır. Mən düşünürdüm ki, Akif Çovdarovun ailəsi, yaxınları utandıqlarından zirzəmilərdə gizlənərlər. Amma bunlar müsahibə verir və Çovdarovun ictimai müdafiəsini təşkil etmək istəyirlər. Aqil Xəlili gözümüzün qabağında döyüb öldürmək istəmirdi? Orada müdaxilə olmasaydı, məktəblilər yaxınlaşıb onu xilas etməsəydi, bu adam Aqili simlə boğub öldürürdü. Hesab edək ki, digər əməllərlə bağlı istintaq keçirilməli idi. Amma Aqilin bıçaqlanması, Rafiq Tağının xəstəxanada birdən-birə öldürülməsini də Eynulla uydurub? Məktəbdə oxuyanda faşistlərə dərin nifrətim var idi. İndi də Azərbaycan faşistlərinə nifrətim böyükdür və azalmayacaq".



**Həbsdəki generalın döydüyü jurnalist Aqil Xəlil:**
"Ortada fakt var, video var;
İnsan nə qədər arsız olar ki, bunları dansın"



**Eynulla Fətullayev:**
"Mən düşünürdüm ki, onun ailəsi, yaxınları utandıqlarından zirzəmilərdə gizlənərlər; amma bunlar müsahibə verir və Çovdarovun ictimai müdafiəsini təşkil etmək istəyirlər"

❑ **Sevinc TELMANQIZI**

# "Qaçqınkom" sədrindən qərar - güzəştlər ləğv olundu

**Azərbaycanda 2017-ci il yanvarın 1-dən etibarən doğulmuş məcburi köçkün uşaqlarına yemək xərci üçün aylıq müavinət verilməyəcək. "Report" xəbər verir ki, bununla bağlı "Məcburi köçkünlərə yemək xərci üçün dövlət büdcəsindən verilən aylıq müavinətin paylanılmasına dair Təlimat"a dəyişikliyin müvafiq hissəsi bu ayın sonundan tətbiq olunacaq.**

Dəyişikliklə bağlı sənədi Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov imzalayıb.

Sənədə əsasən, 2016-cı il 31 dekabr tarixindən sonra doğulmuş məcburi köçkün uşaqlarına yemək xərci üçün aylıq müavinət verilməyəcək.

Bundan başqa, dəyişikliklə Azərbaycanın məhkəmə orqanlarına hakim təyin olunan, habelə kommersiya hüquqi şəxsi kimi dövlət qeydiyyatına alınmış sahibkarlıq fəaliyyəti ilə məşğul olan məcburi köçkünlərə, hüquq-mühafizə orqanlarında xidmət (qulluq) edən zabitlərə, dövlət təminatında olan məcburi köçkünlərə (həqiqi hərbi xidmətdə olan, məhkəmənin hökmü əsasında azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş və cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslərə həmin müddət başa çatanadək), məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə qayıtması üçün şəraitin yarandığı vaxtdan 3 il müddətində əvvəlki yaşayış yerinə geri qayıtmış və ya qayıtmamış şəxslərə aylıq yemək xərci üçün verilən müavinət dayandırılır.



Əli Həsənov

YENİ MÜSAVAT
N 272 (6593) 7 dekabr 2016

**Milli Məclisin 6 dekabrdakı plenar iclasında spiker Oqtay Əsədovun sədrliyi ilə 2017-ci il dövlət büdcəsi zərfinin müzakirəsi başladı. İclasda deputatlarla yanaşı, baş nazir Artur Rasi-Zadənin rəhbərliyi ilə Nazirlər Kabinetinin üzvləri iştirak edirdi.**



# Parlamentdə büdcə müzakirələri başladı

## Baş nazirin və hökumət üzvlərinin iştirakı ilə 2017-ci il üçün xərclər açıqlandı; deputatlardan hökumətə sərt suallar-büdcə müzakirələrində gərgin atmosfer

**Spiker Oqtay Əsədov** giriş nitqində bildirdi ki, dünyanın əksər ölkələrinin iqtisadiyyatında mənfi tendensiyalar, makroiqtisadi problemlər, neftin qiymətinin dünya bazarında aşağı düşməsi Azərbaycan iqtisadiyyatına da təsir edib: "2017-ci il və qarşıdakı 3 il ərzində iqtisadi artım proqnozlaşdırılır. Gələn ilin dövlət büdcəsində qeyri-neft sektorundan daxilolmaların artırılması nəzərdə tutulur. Dövlət Neft Fondundan transfertlər 1,5 milyard manat azaldılaraq 6,1 milyard manat proqnozlaşdırılır. Dövlət Neft Fondundan transfertlərin azaldılması yaxın illərdə də davam edəcək". Spiker qeyd etdi ki, parlamentin komitə iclaslarında 35 deputat çıxış edəndən sonra büdcə zərfi plenar iclasa təqdim olunub. Bundan sonra çıxışlara başlanıldı.

"2017-ci ilin dövlət büdcəsində sosialyönümlü xərclərin çəkisi 40 faiz həcmində proqnozlaşdırılıb. Təbii ki, ölkədə yoxsulluq var, aztəminatlı ailələr var, onların da azaldılması istiqamətdə iş gedir. Pensiyalar, əməkhaqları artırılmalıdır. Amma biz bu artımlar üçün vəsaitlər barədə də düşünməliyik"-deyə, Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadə bildirdi.

**Maliyyə naziri Samir Şərifov bildirdi ki, dəyişiklik nəzərə alınmaqla, 2017-ci il üçün dövlət büdcəsinin gəlirləri 16 255 milyard manat, xərcləri 16,9 mlrd. manat proqnozlaşdırılır:** "Bu, 2016-cı ilin proqnoz göstəricisi ilə müqayisədə 567 mln. manat və ya 3,4% azdır. Tarif Şurasının bəzi kommunal xidmətlərin qiymətlərini differensiallaşdırması ilə əlaqədar gələn ilin dövlət büdcəsində gəlir və xərclər 300 milyon manat artırılıb".

**İqtisadi inkişaf naziri Şahin Mustafayev Milli Məclisdəki büdcə müzakirələrində Tarif Şurasının elektrik enerjisi və qazın tarifləri ilə bağlı son qərarından bəhs etdi. Nazir qurumun qərarına bəraət qazandıraraq bildirdi ki, yeni tariflər əhalinin böyük əksəriyyətinin xərclərinə təsir etməyəcək. Ş.Mustafayev dedi ki, mavi yanacağın qiymət artımı əhalinin 60 faizinə təsir göstərməyəcək, çünki onlar illik 1500 kubmetrlik limiti keçmirlər:** "Mavi qaz tariflərinin dəyişdirilməsi elektrik enerjisinin tariflərinə də baxılmasını zəruri edib. Abonentlərin 70 faizinin orta illik sərfiyyatı 250 kv/saat-dan aşağıdır. Beləliklə, bu qərar əhalinin 2/3-nə təsir etməyəcək, qənaəti stimullaşdıracaq".

**"Ötən 9 il ərzində 2008-ci ildən bəri davam edən iqtisadi böhrandan yalnız bu il baş verən böhranı hiss etmişik". Bunu isə Mərkəzi Bankı İdarə Heyətinin sədri Elman Rüstəmov söylədi. E.Rüstəmov dedi ki, Mərkəzi Bankın idarəolunan məzənnə rejiminin manatın məzənnəsində əhəmiyyəti olub:** "Cari ildə 2016-cı ilin əvvəli ilə müqayisədə manat cəmi 11 faiz ucuzlaşıb. Bu ilin yekunlarını nəzərə alsaq, ölkə iqtisadiyyatı qlobal çətinliklərə və yenidən balanslaşdırma proseslərinə baxmayaraq davamlılıq və dayanıqlıq nümayiş etdirir".

Bundan sonra dövlət büdcəsi haqqında qanun layihəsinin müzakirəsi başlandı.

**Deputat Fərəc Quliyev hökumətə sual etdi:** "317 milyon 300 min, idman obyektlərinin tikintisinə 330 milyon 300 min manat ayrılıb. Birinci Yay Olimpiya Oyunları üçün kifayət qədər vəsait xərclənmişdi. Həmin idman obyektlərindən istifadə etmək və bu vəsaiti daha zəruri sahələrə yönəltmək olmazdımı? Məsələn, 9 min qəzalı vəziyyətdə olan ev var və orda yaşayan ailələri mənzillə təmin etmək olardı". **F.Quliyev gələn ilin büdcə proqnozlarında 101 milyon cərimə vəsaiti ilə bağlı bəndin salınmasını da düzgün saymadı. Deputat Tarif Şurasının qiymət artımı qərarından sonra inflyasiyanın qaçılmaz olacağını dedi:** "Mən 7 ildir büdcə müzakirələrində təklif edirəm ki, işıq, qaz, su və digər sahələr özəlləşdirməyə verilsin. Bu addım atılsaydı, indi həmin qurumlar dövlətə böyük miqdarda vergilər ödəyirdi". **Qiymət artımı ictimai nəqliyyatda da qiymətlərə təsir edəcək:** "Məsələn, metropolitenə ayrılan vəsait cari illə müqayisədə azdır. Rəhbərlik deyir ki, metropoliten zərərlə işləyir. Deməli, burada da qiymət artımı olacaq". "Manatın kursunun saxlanmasına böyük vəsaitlər sərf olunub. Ancaq bu, itirilmiş vəsaitlərdir. Ona görə də Mərkəzi Bankın valyuta ehtiyatlarında 35 faiz azalma var"-F.Quliyev əlavə etdi. Deputat bildirdi ki, bu vəziyyətdən digərlərinin həll etməməsi üçün təcili addımlar atılmalıdır.

**Deputat Qüdrət Həsənquliyev ayrılan xərclərin xərclənilməsi zamanı şəffaflığın təmin olunmasını vacib saydı:** "Üç gün qabaq yaradılmış şirkətə bəzən on milyon dollarlıq tenderlər verilir. Bu sahədə şəffaflıq təmin olunmalıdır. Bir manatlıq iş 5-10 manata gördürülür, sonra da deyirlər "gəlin qiymətləri artıraq". O vəsaitlərdən səmərəli istifadə olunsa, heç qiymət artımına ehtiyac qalmaz". **Deputat mənimsəmə faktları ilə əlaqədar cəzaların sərtləşdirilməsini istədi:** "Hesablama Palatası yoxlama aparandan sonra rəy verilir ki, filan qədər vəsait büdcəyə qaytarılır. Bu vəsaiti mənimsəyən insanlar qorxmalıdırlar ki, dövlət əmlakını taladıqlarına görə məsuliyyət daşıyacaqlar. Əks təqdirdə, onlar məsuliyyət daşımayacaqlarına görə talançılığa davam edəcəklər".

**Dövlət Neft Fondunun xaricdəki vəsaitlərindən 1 milyard manatın ölkəyə gətirildiyini xatırladan Q.Həsənquliyev qalan vəsaitlərdən bir hissəni də Azərbaycandakı banklarda yerləşdirməyə çağırdı:** "Biz öz vəsaitlərimizin bir hissəsini gətirib öz bankımızda saxlamırıqsa, yerli banklara etibar etmiriksə, sədə vətəndaşlar niyə bu banklara etibar etməlidir? Xahiş edirəm, Elman müəllim aydınlıq gətirsin, həmin vəsaitlərin illik gəlirliliyi nə qədərdir? Bəlkə onlar burada saxlanılsa, daha çox gəlir gətirər. Banklar gedib xaricdən 7 faizlə kredit alırlar, sonra onu vətəndaşa 22 faizlə kredit verirlər. Belə çıxır ki, o vəsaitdən ancaq manatın kursunun sabit saxlanılması üçün istifadə olunur".

**Deputat "Qaçqınkom"un rəyinə istinad edərək 9 min qaçqın ailəsinin qəzalı binada yaşadığını xatırlatdı:** "45 min insan hər an Füzuli qaçqınları kimi yanğınla üz-üzə qala bilər. Ona görə də gəlin, idman obyektlərinin tikintisini 2018-ci ilə saxlayaq, gələn il qaçqınlar üçün ev tikək".

**Deputat Fəzail Ağamalı kimya sənayesinin inkişafına diqqət yetirilməsinə çağırdı. Dedi ki, digər mühüm sahə kənd təsərrüfatı və aqrar sektordur:** "Lakin bunun üçün kənd təsərrüfatına ciddi maliyyə dəstəyi verilməlidir. Gələn il kənd təsərrüfatı və sahibkarlığın inkişafı üçün vur-tut 35 milyon vəsait ayrılıb. Nəzərə almalıyıq ki, banklar çöküb, sahibkara kredit verilmir. Belə olan təqdirdə bu sahə necə inkişaf edə bilər?" **F.Ağamalı mənzil kommunal sahəsinə böyük vəsaitlər ayrıldığı halda, Xarici İşlər Nazirliyi üçün nəzərdə tutulan vəsaitin azaldılmasını düzgün saymadı:** "Başa düşmürəm, bizim üçün daha çox hansı sahə vacibdir?" Deputat rayonların əvəzinə quberniyaların yaradılmasını da təklif etdi.

**Deputat Qənirə Paşayeva müəllimlərin güzəştli şərtlərlə ipoteka kreditləşməsindən istifadəsinə imkan yaradılmasını təklif etdi. Xanim deputat əlillərin, xüsusilə də gözdən əlil olan insanların işə cəlb edilməsi ilə bağlı konkret təkliflərini səsləndirdi.** "Biz təbii ki, idman obyektlərinin tikilməsinin tərəfdarıyıq. Amma Qarabağ əlilləri və şəhid ailələrinin mənzil tikintisi üçün nəzərdə tutulmayıb. Çox yaxşı olardı ki, həmin vəsaitin yarısı bu sahəyə ayrılsın. Söhbət təkcə növbəyə duran 5 mindən çox ailədən gedir".

**Deputat Fazil Mustafa 9 milyarddan bir qədər artıq olan büdcənin bölüşdürülməsinin çətin olduğunu söylədi. Ancaq qeyd etdi ki, pulumuzun bol vaxtında da mədəniyyət, təhsil, səhiyyə işçiləri yaxşı yaşamırdılar.** "Orta aylıq əmək haqqı 508 manat nəzərdə tutulub. Ərzaq məhsullarını, dərman preparatlarını və digər sahələri nəzərə alsaq, görərik ki, bu rəqəm kifayət etmir.

Bu gün qaçqın yataqxanalarının yanından keçəndə ürəyimiz ağrıyır. Biz qaçqınların problemlərini vaxtında, gəlirlərin çox olduğu vaxt həll edib bitirməliydik. Amma bun gün nəyin bahasına olursa-olsun bu sahənin vəsaitləri kəsilməməlidir". Deputat məşğulluqla bağlı vəsaitlərin, sosial müavinətlərin, maaşı və pensiyaların artırılması barədə də təklif verdi.

**Zahid Oruc turizmdəki problemlərdən bəhs etdi:** "Gürcüstanın ərazisi Azərbaycanın ərazisindən xeyli kiçikdir. Amma Gürcüstana ildə gələn turistlərin sayı 6 milyondur, bizdə 1 milyon. Gürcüstanın təbii zənginliyi bizdən on dəfələrlə aşağıdır. Bu fərqin yaranmasının bir səbəbi var, xarici vətəndaş öz vəsaitinin 60 faizini hotel və nəqliyyata verəcəksə, o ölkəyə gəlməyəcək".

**Z.Oruc büdcə müzakirələri zamanı iki sabiq nazirlə bağlı məhkəmə prosesinin davam etdiyini xatırladaraq bildirdi ki, həmin nazirliklərin ətrafında baş verənlərin təkrarlanmaması üçün büdcə vəsaitlərinin xərclənməsində mexanizmlər hazırlamalı, həyata keçirməlidir.** "Bizim millətin psixologiyası elə qurulub ki, biz sabit manat istəyirik. Bu zaman vətəndaş da öz saxlancında olan ehtiyatını ortaya çıxaracaq, sahibkar da"-deyə, Z.Oruc devalvasiyadan bəhs etdi.

**Deputat Vahid Əhmədov ƏDV ilə bağlı diferensial vergi sisteminin tətbiqinə çağırdı:** "Aparılan islahatlar hərtərəfli olmalıdır, həm instisional, həm kadr islahatları aparılmalıdır. Yalnız bu halda problemlərin həllinə nail olmaq mümkündür". **V.Əhmədov bir sıra qapalı təşkilatlara böyük miqdarda vəsaitlərin ayrıldığını, lakin burada xərcləmə ilə bağlı araşdırmaların aparılmadığını vurğuladı.** "Biz ölkədə inkişafa nail olmaq istəyiriksə, elmə ayrılan vəsaitləri artırmalıyıq" deyə, V.Əhmədov əlavə etdi. Həmçinin iki devalvasiyadan sonra əhalinin maaş və pensiyalarına əlavələrin edilməsini zəruri saydı. Deputat bankların bağlanmasına qarşı çıxdı: "Biz bank sistemini sağlamlaşdırmasaq, ölkədə inkişafa nail ola bilmərik".

**V.Əhmədov Tarif Şurasının qiymət artımı ilə bağlı qərarından danışdı:** "Burada iki məqsəd ola bilər: ya dövlət büdcəsinə əlavə vəsait daxil etmək istəyiblər, ya da hansısa şirkətlərin istəyi nəzərə alınaraq bu qərar verilib. İndi deyirlər bu artımın 60-70 faizi əhaliyə təsiri yoxdur. Bunlar düzgün deyil. Qiymət artımına qədər əhalinin 80 faizi ödəniş edə bilirdi, insanların imkanı yox idi. Bundan sonra heç 80 faiz miqdarında da vəsaitləri yığmaq mümkün olmayacaq. Biz əhaliyə millət vəkili olaraq necə cavab verəcəyik? Deyirlər bu qərarla müəyyən vəsaitlər cəlb olunacaq. Mən iqtisadçıyam, yüz nöqtədən bu vəsaitlərin cəlb olunmasını göstərə bilərdim. Tarifləri artırmağa ehtiyac yox idi".

**Daha sonra V.Əhmədov hökumətə sual etdi:** "Son illərdə regionlara 36 milyard vəsait ayrılıb. Bu vəsait hara xərclənib?"

**Deputat Əli Məsimli əhalini narahat edən məsələlərlə bağlı hökumətə 7 sual ünvanladı. Həmçinin "sahibkarları soyan məmur özbaşınalığına son qoyulacaqmı?"-deyə, məmurlardan cavab istədi.**

**Ə.Məsimli dedi ki, prezident tapşırıqlarının icrası üçün kifayət qədər vaxt verilsə də, nəticəsi olmur: "Bu, təxribatdır, səriştəsizlikdir, yoxsa saymazlıqdır?"**

**Deputat bahalaşma qərarına qarşı çıxdı:** "Kölgə iqtisadiyyatının 10 faizinin daraldılması ilə Azərbaycanın büdcəsinə yarım milyard vəsait gətirmək olar. İşıq və qazdan büdcəyə 300 milyon vəsait cəlb edəcəklərini deyirlər. 300 milyona görə bu qədər narazılıq yaratmağa ehtiyac var idimi?"

**Müzakirələr bu gün davam etdiriləcək.**

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 272 (6593) 7 dekabr 2016



# Tut problemi

Zamin HACI
zaminhaci@gmail.com

**Hökumət baramaçılığı, ipəkçiliyi inkişaf etdirmək istəyir, bu məqsədlə Çindən minlərlə tut ağacı tingləri alıb gətiriblər, deyilənə görə, bu işə 600 min dollar sərf olunubdur. Məlum şeydir, tut yarpağı olmasa, ipəkqurdu acından ölər. Tut ağacı bu mənada ipəkqurdu üçün bizim millətə AzTV vacib olan kimi bir şeydir. Bunun şeiri də var, yeri doldurmaq üçün yazım, yoxsa hamı bilir: "Bəslənən atlas olar tut yarpağından, Saxlasan salfet olar manat kağızından".**

Bunu qoyum ora gedim, demək, dünən uşaq məktəbdən gəlib, deyir, ata, bir qədər saxta pul lazımdır. Gözüm çıxdı kəlləmə, elə bildim məktəbdə bunlara "Həyat bilgisi" dərsində saxta pul düzəltməyi öyrədirlər. Açığı, bir az sevindim də. Krizis vaxtıdır, qoy uşaq özünü dolandırmağı indidən öyrənsin. Ya da hökumət nəsə torba tikib, məni ilişdirmək istəyirlər. *(Xain xoflu olar axı, mənim də keçmişdə uca hökumətimizə qarşı bəzi destruktiv cızmaqaralarım olmuşdur).* Ancaq qısa dialoqdan sonra öyrəndim ki, sən demə, bunlarda dərsin mövzusu Azərbaycan pulu imiş, müəllim də xahiş edib ki, kimdə on qəpiklik saqqızlardan çıxan manat şəkillərindən varsa məktəbə gətirsin, baxıb milli valyutamızı öyrənəcəklər.

Qayıdaq ipəkqurdunun yanına, yoxsa yarpaqsız qalıb yazımızı yeyəcəklər. Mən uşaq vaxtı bu ipəkqurdları üçün tut budaqlarını çox qırmışam. Yaşayanlar bilir, ipəkqurdlarının tut yarpağını xırtaxırtla yeməsi çox məzəli, xoş mənzərədir. İndi də elə bilirəm o səs qulağımdadır. Özümüz ipəkqurdu saxlamırdıq, ancaq barama istehsalı üçün qohum-qonşuya çox yardım eləmişəm. Sovet dövründə bu ipəkçilik istiqamətində də mərkəzi hakimiyyət bizim dərimizə saman təpirdi. O boyda əziyyətin əvəzində insanlara qəpik-quruş verirdilər. Ən tragikomiki o idi ki, sən ipək parçanı istehsal edirdin, ancaq dükanlarında bu ipəkdən paltar tapa bilməzdin. Murdar sovet hökuməti o ipəyi hara satırdı, nə üçün istifadə edirdi, hələ də mənə məlum deyil.

Sözgəlişi, pambıqçılıqda da eyni durum idi. Azərbaycan guya milyon ton pambıq istehsal edirdi, ancaq əynimizə geymək üçün Vyetnamın, Finlandiyanın, nə bilim, Çexiyanın-filanın paltarlarını hansısa dılğır raypo sədrinin, zavmağın, univermaq müdirinin bığının altından keçib, gizli yolla, əsl qiymətindən baha almalıydıq. Bunun necə təhqiramiz prosedur olduğunu indiki qırmızı tumanlı, burnufırtıqlı, sovet-kommunizm aşiqi solçu uşaq-muşağa izah eləmək çox çətindir. Görürsən sənə SSRİ-ni elə tərifləyirlər ki, fikirləşirsən biz hansı dövlətdə yaşamışıq, bunlar nə deyirlər?

Uzun sözün qısası, indi ipəkçilik dirçəldilmək üzrədir. Neft nağılı qurtarıb, indi müdrik yapist yoldaşlar sevgili xalqımıza başqa nağıllar danışmalıdır, yoxsa ac qarına yatmaq çətindir. Bu haqda da el məsəli var, deyir ilan vuran yatar, ac adam yatmaz. Gələn il respublikamızda bu məqsədlə camaatın içinə çoxlu ilan buraxılacaq, biləsiniz - iqtidar xalqı hərtərəfli fikirləşir.

Nağılın biri pambıqçılıq idi, o biri də ipəkçilikdir. Ancaq rayonlardan, örnək üçün, Füzuli rayonundan gələn xəbərə görə millət Çindən gələn tut ağaclarından narazıdır. Deyirlər bu ağaclar sözün əsl mənasında "kitayski" imiş. İzahatı o qədər ekzotikdir ki, dünən mən buna bəlkə yarım saat gülmüşəm. Yazım, siz də bilin.

Sən demə, Çindən gətirilən tut tinglərinə ilkin baxışdan sonra, o cümlədən mütəxəssis rəylərini dinləyəndə ortaya çıxıb ki, bu ağaclar meyvə, yəni tut gətirmir. Eləcə yarpaq işinə yarayırmış. *(Düzü, anlamadım bunlar necə artıb çoxalır, çiçəksiz, meyvəsiz ağac mümkün deyil axı).* Ancaq əlbəttə, rayon sakinlərini işin elmi tərəfi narahat eləmir. Onlar fikirləşirlər ki, əgər bu tutlar meyvə gətirmirsə, biz sabah tut arağını nədən çəkəcəyik?

Doğrudan da çox önəmli problemdir.

# Rusiyanın 2017 ssenarisi - Türkiyə də prosesin içində

**Dağlıq Qarabağ problemi ətrafında bəzi diqqətçəkən gəlişmələr var. O sırada Rusiyanın yeni xarici siyasət konsepsiyasında Qarabağ münaqişəsinin də Kreml üçün prioritetlər arasında yer almasını və Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlunun Alanyada rusiyalı həmkarı Sergey Lavrovla görüşdən dərhal sonra Bakıya səfər edərək, burada Qarabağla bağlı verdiyi mesaj və açıqlamalar maraq doğurur.**




## Kremlin yeni Qarabağ oyunu - 5 rayon söhbəti təzələnir

### Qərb gözləmə mövqeyində ikən, Moskva bir əldə bir neçə "qarpız" saxlamağı planlayır və Ankaranı da razı salmağa çalışır ki...; ekspertlərin yaxın perspektivə proqnozları; Qarabağa FTX nəzarət edir?..

Bu arada siyasi təhlilçilər Ankara-Moskva əməkdaşlığının getdikcə dərinləşməsi fonunda Dağlıq Qarabağ düyününün açılması ilə bağlı ehtiyatlı təxminlər səsləndirməyə başlayıb. Belə ehtimallar var ki, Yaxın Şərqlə, Suriya ilə bağlı perspektiv anlaşmalar bu iki regional supergücün Güney Qafqaza dair də bəzi ortaq işbirliyini şərtləndirə bilər. Bununla belə, Rusiyanın güddüyü hədəflərdən dolayı, Ankara və Bakının daha diqqətli olması da önə çəkilməkdədir.

***

"Moskva Türkiyəyə Suriyada cüzi güzəştlər etməklə Ankaranı razı salmağa çalışır ki, Azərbaycana təsir göstərsin". Bu sözləri axar.az-a açıqlamasında politoloq, sabiq dövlət müşaviri Qabil Hüseynli deyib. Onun fikrincə, Rusiya sanki Qarabağ probleminə dair Ermənistanla üst-üstə düşən fikirlərini Türkiyəyə də təlqin etməyə çalışır.

"Hazırkı proses təxminən belədir: ənənəvi Dağlıq Qarabağ qalır, onun ətrafındakı rayonlar hissə-hissə Azərbaycana geri qaytarılır və referendumla Qarabağın son statusu müəyyənləşdirilir. Ortada bir keçid statusu məsələsi var, hansı ki, ruslar onu da işə salıblar. Bu da 5 rayonun azad olunması müqabilində Dağlıq Qarabağa aralıq statusun verilməsidir. Ancaq Azərbaycan münaqişənin yeni Madrid prinsipləri əsasında nizama salınmasını tələb edir", - ekspert qeyd edib.

**Politoloq həmçinin Rusiyanın Türkiyəni Dağlıq Qarabağın tənzimlənməsi istiqamətində bəzi məsələlərlə bağlı razı salmağa çalışdığını bildirib:** "Moskva Suriyada Türkiyəyə cüzi güzəştlər etməklə Ankaranı razı salmağa çalışır ki, Azərbaycana təsir göstərsin və Dağlıq Qarabağ ətrafındakı rayonları qismən azad etməklə erməniləri qane edəcək statusu bizə qəbul etdirsin. Proses olduqca ağır mərhələdən keçir. Prezident İlham Əliyev buna Tərtər və Ağdam səfərində çox açıq və birmənalı cavab verdi. Ölkə rəhbərinin mövqeyi sona qədər dəyişməz olaraq qalır - baxmayaraq ki, Rusiyanın mövqeyi tamamilə Ermənistanın tərəfindədir və eyni zamanda Moskva Ankaraya da təsir göstərməklə Bakını müəyyən kompromislərə getməyə, Dağlıq Qarabağ məsələsində razı salmağa çalışır. Bütün səylərə rəğmən, Azərbaycan Dağlıq Qarabağ məsələsində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək".

**"Moskva hazırda iki istiqamətli siyasət yürüdür". Bunu isə politoloq Arzu Nağıyev deyib. Onun qənaətincə, hazırda Rusiyanın əsas prioriteti regionda yenidən nüfuz qazanmaqdır:** "Kreml nəyin bahasına olursa-olsun, həm nüfuzunu saxlamaq, həm də beynəlxalq təşkilatlara Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlı olduğunu göstərmək istəyir. Qərbin tələblərindən biri budur ki, əgər Rusiya özünü daim SSRİ sələfi kimi təqdim edirsə, deməli, müharibə ocaqlarının qarşısını almağa birbaşa cavabdehdir. Ona görə də Qərb əsas oyunçu olduğu üçün Qarabağ məsələsinin həllini də Rusiyaya həvalə edib".

**Politoloqun sözlərinə görə, Moskva Qarabağ məsələsini sona çatdırmasa, bu, onunçün böyük problemlərlə nəticələnə bilər:** "Üstəlik, Rusiya iri layihələrin hamısından təcrid oluna bilər. Məhz bunun başa düşən Putin indi bu istiqamətdə müvafiq addımlar atır və münaqişənin həllini xarici siyasətdə prioritet kimi qəbul edir. Ancaq unutmaq lazım deyil ki, Rusiya və Ermənistan KTMT-də bir cəbhədədir. Bir sözlə, Moskva hazırda iki istiqamətli siyasət yürüdür".

***

Göründüyü kimi, əslində Kreml Dağlıq Qarabağla bağlı ikili, hətta üçlü oyun oynamağa başlayıb və Türkiyənin sayəsində bir əldə bacardıqca çox "qarpız" saxlamağa yönəlib. Əsas hədəf şübhəsiz, Rusiyanın Güney Qafqazda, Yaxın və Orta Şərqdə özünün geosiyasi maraqlarını təmin etmək, böyük bir bölgədə hərbi cəhətdən daha da möhkəmlənməkdir.

Ancaq bizi təbii ki, ən çox ölkəmizin ərazi bütövlüyünün bərpası, Qarabağ danışıqlarında milli mənafeyimizə cavab verən dönüşün olmasıdır. Rusiya bu yöndə üzümüzə gələn ildə hansısa pozitiv töhfəsini verəcəkmi? Aktual suallardan biri budur.

Əfsus ki, ona indilikdə nikbin cavab yoxdur. Bir şeyi əminliklə yazmaq olar ki, Rusiya Dağlıq Qarabağda sülhməramlı adı ilə hərbi kontingent yerləşdirmək planından əsla vaz keçməyib və konfliktin həllində irəliləyişi də öncəliklə bu plan kontekstində mümkün sayır.

İstisna deyil ki, Moskva Türkiyənin Azərbaycana təsirini artırmasını ilk növbədə buna görə istəyir. Bütövlükdə isə ABŞ-ın "kölgə kəşfiyyatı" sayılan "Stratfor" analitik qrupunun da özünün son hesabatında vurğuladığı kimi, gələn il Rusiya münaqişəli zonalardan istifadə edərək, postsovet ölkələrində öz itirilmiş mövqelərini bərpa etməyə çalışacaq.

***

Bu xüsusda nüfuzlu analitik və jurnalist, Dövlət İlya Universitetinin professoru Oleq Panfilovun fikirləri də diqqətçəkicidir. Ukrayna mətbuatına müsahibəsində o bildirib ki, keçmiş SRRİ ərazisindəki bütün münaqişələr postsovet ölkələrinin qarmağa keçirilməsi və onların Moskvanın təsir dairəsindən çıxmaması üçün hazırlanıb (virtualaz.org ).

"Qarabağ və postsovet məkanındakı bütün separatçı regionlar Kremlin icadıdır. Əlbəttə, Abxaziyada, Qarabağda, Dnestryanı bölgədə münaqişələr üçün tarixi zəmin də mövcud olub. Gürcülərlə abxazlar arasında etnik gərginlik hələ 70-ci illərdən var idi. Dnestryanı bölgədə də belə olub" - Panfilov deyib.

**Onun sözlərinə görə, Qarabağda situasiya ondan asılı olacaq ki, Moskva bu münaqişəni nizamlamaq istəyir, ya yox. Politoloq hesab edir ki, hazırda Kremlin belə niyyəti yoxdur.** "Qarabağda rus qoşunları mövcud deyil. Ancaq Qarabağ müharibəsi təzə başlayanda bu, muzdluların müharibəsi idi. Ukraynalı və rus təyyarəçilər Azərbaycan aeroportlarından qalxıb Stepanakerti (Xankəndi-red.) bombalamağa uçurdu, orada isə onlara yerdən rus zenitçilər atəş açırdı. İndi situasiya başqadır. Lakin Qarabağa son hesabda Federal Təhlükəsizlik Xidməti tərəfindən nəzarət olunur. Rusiya nə vaxt oradan çıxsa, Qarabağ da onda sakitləşəcək" - təhlilçi bildirib.

**Oleq Panfilovun fikrincə, məsələdə tarixi xüsusiyyət də var:** "Son 200 ildə ermənilər Rusiya siyasəti ilə bağlı olublar. Ona görə də erməni cəmiyyətinin içərisindən Rusiyaya qarşı olan adamların çıxmasını izləmək maraqlıdır. Erməni cəmiyyətinin bir hissəsi başa düşür ki, Kremllə ittifaq gec-tez dalana aparıb çıxaracaq".

**Ekspertin qənaətincə, operativ planda Rusiyaya Cənubi Qafqazda Gürcüstan daha çox lazımdır:** "Çünki bu, bütün Cənubi Qafqazı ələ keçirmək üçün əlverişli platformadır. Tarixdə bu yaşanıb. 19-cu əsrdə ruslar Fars və Osmanlı imperiyalarına qarşı müharibə üçün Gürcüstanda nəhəng baza yaratmışdılar" - Panfilov əlavə edib.

***

Bəs qarşıdakı ildə Moskva əsas hədəfinə çata biləcəkmi, yaxud nəhayət, 2017- Qarabağ üçün açılım ili olacaqmı? Sonuncu sualın cavabı yəqin ki, Rusiyanın təkcə Türkiyə ilə deyil, həm də ABŞ-la, prezident V.Putinin isə Ağ Evin təzə sahibi D.Trampla münasibətlərindən asılı olacaq.

Hələ ki ABŞ, bütövlükdə Qərb Qarabağ məsələsində gözləmə mövqeyindədir. Belə görünür, daha bir səbəb Ankara-Moskva tərəfdaşlığının hara kimi inkişaf edəcəyi ilə bağlı Qərbin gözləmə mövqeyi tutması ilə ilgilidir. Sözsüz ki, Trampın formalaşdıracağı komandadan da az şey asılı olmayacaq.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 272 (6593) 7 dekabr 2016

# Pakistan və Türkiyə ilə ortaq hərbi birləşmə Qarabağa nə vəd edir?

## Ekspertlər ikili hərbi ittifaqı daha real hesab edirlər; o halda regionda güc balansı dəyişəcək...

**Azərbaycan prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasına ikinci rəsmi səfərinə hazırlıq gedir. Gələn ilin əvvəlinə planlaşdırılan bu ziyarət, şübhəsiz ki, ikitərəfli əlaqələrin inkişafında növbəti mərhələnin əsasını qoyacaq. Pakistan Azərbaycandan ötrü faktiki, Türkiyə qədər vazkeçilməz, dost-müttəfiq statusunda və dəyərində olan bir dövlətdir. Müstəqilliyimizi Türkiyədən sonra ikinci sırada tanımış Pakistan həmçinin nüvə silahına malik yeganə müttəfiqimizdir.**



Bu, nüvə dövləti Rusiya ilə Ermənistanın müttəfiqliyinin ölkəmiz üzərində yaratdığı psixoloji üstünlüyü tamamən neytrallaşdırmağa qadir yetərincə mühüm və strateji əhəmiyyətli bir məqamdır. Ən önəmlisi odur ki, Pakistan Ermənistan üzərində hərbi üstünlüyümüzü saxlamaq üçün bizə real şəkildə kömək edə biləcək həlledici dövlətlərdən biridir. Prezident İlham Əliyevin qarşıdakı səfəri hər şeydən öncə bu kontekstdə önəm daşıyır.

Bu ərəfədə Naxçıvanda Türkiyə-Azərbaycan-Pakistan, yaxud Azərbaycan-Pakistan, Azərbaycan-Türkiyə birgə hərbi birləşməsinin yaradılması barədə təkliflər irəli sürülməyə, xəbərlər yayılmağa başlayıb. Belə bir hərbi birləşmənin yaradılmasının Qarabağ probleminə təsiri necə ola bilər? Ümumiyyətlə, bu cür hərbi birləşmə yaradılması mümkündürmü?

**Politoloq Elçin Mirzəbəyli bildirdi ki, maraqlı təklif və arzudur. İlk baxışda Azərbaycan-Türkiyə-Pakistan münasibətlərinin ruhunu ifadə etdiyi üçün cazibədar görünür. Amma indiki şəraitdə Türkiyənin NATO üzvü olması bu cür üçlü hərbi birləşmə yaradılmasına maneədir:** "Türkiyə NATO üzvüdür və avrotlantik ittifaqın yaradılması ilə bağlı müqavilənin 8-ci bəndinə əsasən alyansdankənar hər hansı 3-cü ölkə ilə hərbi ittifaqda olmağı qadağan edir. Avratlantik ittifaqın müqaviləsinə əsasən alyans üzvləri öz üzərlərinə bu müqavilədən kənar nəinki ikitərəfli, yaxud üçtərəfli, hətta beynəlxalq hərbi öhdəliklər belə götürə bilməzlər.

Türkiyənin hər hansı bir 3-cü dövlətlə hərbi ittifaqda olması üçün ilk növbədə Avratlantik İttifaqın müqaviləsindən çıxması lazımdır. Bu isə hazırda mümkün deyil, Türkiyənin dövlət maraqları da buna imkan vermir. Azərbaycanın Türkiyə ilə eyni hərbi-siyasi ittifaqda təmsil olunması bir halda baş tuta bilər ki, ölkəmiz NATO üzvlüyünə qəbul olunsun. Lakin burada da yolumuzu NATO müqaviləsinin müddəaları kəsir. Yəni ərazisində münaqişə olan, yaxud hər hansı bir dövlətlə münaqişədə olan ölkələrin NATO üzvlüyünə qəbul olunması mümkün deyil".

**Politoloqa görə, Pakistan hər hansı hərbi-siyasi blokda təmsil olunmadığı üçün belə bir öhdəliyi yoxdur və bu ölkə Azərbaycanla hərbi-siyasi ittifaqa girə, birgə hərbi birləşmələr yarada bilər:** "Belə bir ittifaqın baş tutması üçün əlverişli regional və beynəlxalq şərait olmalıdır. Hazırda dünyada həddindən artıq mürəkkəb proseslər gedir. Belə bir vəziyyətdə heç bir ölkə risk etmək istəmir və proseslərə müəyyən qədər aydınlıq gəlməsini gözləyir. Reallıq daha təmkinli davranmağı tələb edir. Azərbaycan Türkiyə və Pakistanla hərbi əməkdaşlığını davam etdirə bilər. Xüsusilə də hərbi-sənaye kompleksləri arasındakı əməkdaşlıq çərçivəsində. Hərbi-sənaye kompleksləri arasında əməkdaşlığın özü Azərbaycan ordusunun silahla təchizatı baxımından vacibdir. Ordumuzun gücləmnəsinin isə təbii ki, Qarabağ məsələsinin həllində təsiri var".

**Politoloq Natiq Miri bildirdi ki, Azərbaycan-Türkiyə-Pakistan üçlü hərbi ittifaqı, birgə hərbi birləşmələrini yaratmaq Türkiyənin NATO üzvü olması səbəbindən asan deyil:** "Ona görə də Azərbaycan-Pakistan birgə hərbi birləşmələrinin yaradılmasından söhbət gedə bilər. Mümkün olan budur. Azərbaycan Pakistanla hərbi müttəfiqliklə bağlı saziş imzalaya bilər. Naxçıvan üzərindəki haqlarını da nəzərə alaraq orada Türkiyə hərbi hava qüvvələrinin bir eskadrilyası yerləşdirilə bilər ki, bu da gələcəkdə Naxçıvan Azərbaycan ərazisi olduğu üçün istənilən təhlükə zamanı türk savaş uçaqlarının bütün Azərbaycan boyu hərəkət etməsinə şərait yarada bilər.

O ki qaldı Qarabağ məsələsinə, indiki halda belə bir üçlü və ya ikili hərbi ittifaq yaradılarsa, bu artıq region ölkələri üçün güc balansının dəyişməsi anlamına gələcək. Rusiya ilə işğalçı Ermənistanın ortaq hərbi qruplaşma yaratdığı vaxtda ya qardaş Türkiyə, ya da Pakistanla bu cür müqavilənin bağlanması, Azərbaycanın təhlükəsizliyinin daha etibarlı səviyyəyə qaldırılması baxımından arzuolunandır. Bununla ciddi maliyyə imkanlarından məhrum Ermənistanın hərbi balans yaratmaq ümidləri həmişəlik basdırıla, düşmən Qarabağ danışıqlarında konstruktiv mövqeyə keçməyə məcbur ola bilər".

❑ **Etibar SEYİDAĞA**

# Əsədlə bəşər barışır-Qərb mediasından ilginc iddia

## ABŞ və Rusiya anlaşıb; Lavrov deyir ki, anlaşmaya əsasən, Hələbi tərk etməyənlər terrorçu hesab olunacaq

**Suriyada hazırda əsas döyüşlər ölkənin şimalında - Hələb şəhərində gedir. Gələn son məlumatlara görə, şəhərin artıq 75 faiz ərazisi hökumət qüvvələrinin nəzarətinə keçib. Son olaraq daha iki rayonu silahlılardan geri alan hökumət qüvvələri oktyabrdan bu yana davam edən hücum əməliyyatı nəticəsində müxaliflərin nəzarətində olan Hələbin şərq rayonunun 60 faizi artıq hökumət qüvvələrinin nəzarətinə keçib.**



Rusiya hərbi hava qüvvələri, "Hizbullah" və hökumət qüvvələrinin iki aya yaxındır davam edən hücumları nəticəsində artıq Hələbin yaxın günlərdə hökumətin nəzarətinə keçəcəyi ehtimal olunur. Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib ki, ABŞ və Rusiya arasında əldə olunan razılaşmaya əsasən silahlılar Hələbi tərk etməlidirlər. Eyni zamanda Lavrov deyib ki, anlaşmaya əsasən, Hələbi tərk etməməkdə israr edən silahlılar terrorçu hesab olunacaq. Lavrov deyib ki, anlaşmanın yekunlaşması üçün Cenevrədə ABŞ və Rusiya ekspertlər heyəti yenidən toplanacaq. O, İspaniya, Yeni Zelandiya və Misir tərəfindən BMT TŞ-yə təklif olunmuş Hələbdə 7 günlük atəşkəs təklifini Rusiya-ABŞ anlaşmasını pozmağa yönəlmiş təxribat adlandırıb.

Qeyd edək ki, Hələb Suriyanın şimalında əsas strateji nöqtə, ölkənin ikinci ən böyük şəhəridir. Hələbə nəzarət bütövlükdə Suriyanın şimalını böyük ölçüdə nəzarət altında saxlamaq mənasına gəlir. Bu səbəbdən də 2012-ci ildən silahlıların nəzarətində keçən Hələbin yenidən hökumətin nəzarətinə qaytarılması Bəşər Əsəd hökuməti üçün həddən artıq mühümdür. Hələbin taleyinin həll olunması Suriya münaqişəsinin həlli istiqamətində çox mühüm irəliləyiş, belə desək münaqişənin taleyini dəyişən hadisə olacaq.

Hələbdəki vəziyyət və onun Suriya münaqişəsinə təsiri mövzusu Qərbdə də ciddi şəkildə fikir dəyişikliyinə səbəb olub. Britaniyanın "The Independent" qəzeti son yazısında artıq Suriyada münaqişənin taleyinin böyük ölçüdə həll olunduğunu və bu səbəbdən Qərb ölkələrinin mövqelərini dəyişməyə çağırıb.

Qəzet yazıb ki, Qərb ölkələri Suriyada yürütdükləri siyasətin ölkə üçün bu şəkildə fəlakətə səbəb olduğunu artıq etiraf etməlidir. Yazı müəllifi son zamanlarda Suriyada baş verənlərin görməzdən gəlindiyini qeyd edib. Müəllif iddia edib ki, Hələbdə insan qırğınlarına və faciələrə son qoymağın yeganə yolu inadı yerə qoyub münaqişəni dayandırmaqdır. "O zaman artıq günahsız insanlar ölməz" deyə, müəllif yazır.

Müəllif qeyd edib ki, Hələbdə münaqişənin yekunlaşması Suriyada savaşın başa çatması üçün fürsət ola bilər. Qəzet Qərb ölkələrinin müxaliflərə yardım etməsinin nəticə etibarı ilə bu münaqişənin daha da uzanması və daha fəlakətli hal almasına gətirdiyini yazıb.

Qeyd edək ki, Lavrovun da açıqlamasından ABŞ və Rusiya arasında Hələb mövzusunda anlaşma əldə olunub və bu anlaşma Hələbin hökumətin nəzarətinə keçməsini nəzərdə tutur. Bir qədər əvvəl Suriya mətbuatı Bəşər Əsədin Hələbə səfərə gələcəyini və oradan ölkə əhalisinə və dünyaya müraciət edəcəyini bildirib. İndi hər kəs Hələbin taleyinin həll olunmasını həm də böyük ölçüdə münaqişənin taleyinin həlli ilə bağlayır. Britaniyanın kəşfiyyat və siyasi dairələrə bağlı mediasının Əsədlə barışığa çağıran yazısı Qərbin də artıq münaqişədən yorulduğunu, həll yolları axtardığını göstərir. İndi əsas sual münaqişənin hansı yolla həlli, ölkənin taleyinin hansı istiqamətə dəyişəcəyi kimi suallar açıq qalsa da, silahların yerə qoyulması və müharibənin başa çatması ilk addım olacaq.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 272 (6593) 7 dekabr 2016



# Turan yolçusu - Şuşadan Pamirədək...

**Son anadək dözmək... Ən son anda, son macalda qərar vermək, öz fikrini, reaksiyasını lap axırda bildirmək xüsusiyyəti, razılaşın, həqiqətən məhz xüsusi insanlara məxsus bir keyfiyyətdir. Bir də belə deyək: "Dövlət idarətmə sistemində əvəzolunmaz bir cəhətdir". Bu dəyərli cəhəti, canlı şəkildə mən çox təcrübəli bir dövlət xadimində görmüşəm. Yadıma gəlir, 1994-cü ilin soyuq dekabrı, katolik Milad bayramı günləriydi...**

Moskvadan Bakıya gəlmiş Rusiya İslam Komitəsinin sədri Heydər Camal Bakıda öz adaşı, ölkə prezidentimizlə görüşməli idi. Həmin görüşün iştirakçılarından, təşkilatçılarından biri kimi mən son anadək bilmirdim bu görüş baş tutacaq, ya yox. Bu görüşdə nə varsa ziddiyyətli idi - Bakı, 28 May küçəsindəki katolik kilsəsi... Ordakı Milad bayramı... Həmin kilsədə oturmuş Rusiya Müsəlman Komitəsinin sədri Heydər Camal... Və başqaları... Mərhum prezident Heydər Əliyev ora gəlib kotoliklərin bayramını təbrik etdi. Sonra eşiyə adlayıb öz qara avtomobilinə doğru addımladı. Avtomobilin qapısı açılanadək Heydər Əliyev biz barədə heç nə demədi. Çaşdıq əvvəlcə biz. Dedik ki, əfsus, deyəsən, görüş baş tutmayacaq. Lakin ən son anda, qarşısında qara avtomobilinin ağır qapısı açılmışkən, qəfil geri qanrılıb bizə tərəf baxdı.

Sonra bir bizə, bir də köməkçisinə ünvanlayaraq qısaca pıçıldadı:

- Görüşümüzü təşkil edin.

Bax beləcə, 1994-cü ildə, Bakıda mən iki adaşı görüşdürməyə nail oldum. Sanki tərəzinin bir gözündə Heydər Əliyev, digərində Heydər Camal. Ağırlıq nöqtəsi, sözsüz, tərəzinin Heydər Əliyev tərəfində olsa da, arada bir müvazinət də yaranırdı bu tarixi görüşdə. Belə anlarda onları kənardan müşahidə etmək mənə xüsusi zövq verirdi.

Sonradan Heydər Camalın Bakı görüşləri intensivləşdi. Bakıya adətən öz adaşı-Heydər Əliyevin təşəbbüsü ilə dəvət edilən bu böyük filosof, lüks hotellərdə qalmağı sevməzdi. Hava alanındaca müşayiət eskortundan, cangüdənlərdən əl çəkər, durub gələrdi düz bizim evə. Söhbətlərimiz gecəyəcən davam edərdi. İndi hər iki Heydərimiz haqq dünyasına qovuşduqdan sonra bu xatirələr daha əzizdi, dəyərlidir mənimçün.

***



Liberal, antiislamçı Moskva mətbuatı Rusiya İslam Komitəsinin sədri Heydər Camalı sözün məcazi mənasında "İslam cihadının oğlu" sayır. Ancaq bu, məncə, sözün təkcə məcazı mənasında yox, həm də həqiqi mənasında belədir - o, tanınmış rəssam Cahad Heydərin doğmaca oğludur axı. 1940-cı ildə hələ lap gənc ikən Cahad Heydər sevimli Şuşasından ayrılıb Moskvaya gedir ki, orada rəssamlıq sənətinə yiyələnsin. Müharibə başlanınca ordu sıralarına alınır, məşhur marşal Jukovun şəxsi rəssamı vəzifəsində Almaniyaya daxil olur. Şərqi Prussiyanın paytaxtı Köninqsberqdəki qədim alman qəsrlərindən qənimət kimi götürülmüş bir kreslonu sonralar Heydər Camalın evində özüm görmüşəm. 3-4 nəhəng maral buynuzunun birləşdirərək onu kreslo halına gətirmiş alman ustası haradan biləydi ki, həmin bu kreslo nə vaxtsa Heydər Camalın Moskva kabinetini bəzəyəcək?! Onunla ilk dəfə görüşəndə o, bu kreslo üzərində əyləşərək mənə öz həyatını danışırdı:

**- Atamla anam evlənəndən iki il sonra Şuşaya gəlirlər. Yaddaş kitabımın ilk səhifəsinə bir dumanlı dağ mənzərəsi həkk olunub. Bəlkə məhz Şuşa dağlarının zəif əksidir ki, ilişib qalıb orda. Sonra ailəmiz dağıldı. Anam Məshəti türkü idi, "Mosfilm" kinostudiyası heyvanxanasındakı yırtıcıları əhliləşdirib rejissorlara təhvil verər, geri alardı. O, hətta şimal qurdlarını da əhliləşdirib. Qurdların göz bəbəklərinə baxmağı ondan öyrəndim...**

İlk dəfə Heydər Camalın mavi gözlərinə bax bu zaman zilləndim mən. Gördüm ki, həəə... Heydərin mavi gözləri qurd gözündən əsla seçilmir.

O gündən başlayaraq Heydər Camal mənim gözümdə yeni bir dəyər qazandı-dönüb oldu əsl bozqurd.

Heydər özü də bunu hiss edib mənə öz qədim türk, bozqurd köklərini açdı.

**- Ana babam, Noqay türkü Taparaliyev,- Stalin vaxtı SSRİ Ali Məhkəməsində yüksək vəzifə sahibi,- məni övladlığa götürdü o çətin uşaqlıq günlərimdə. Dəcəldim yaman, ancaq babamın zəngin kitabxanasını başdan-ayağa oxudum, xüsusən oradakı klassik alman fəlsəfəsinin külliyyatını. Qollarımda şir gücü vardı o gənc vaxtlarımda, beynimdə alman klassik fəlsəfəsi, şeir də yazırdım, bax, beləcənə gəlib girdim Moskva Xarici Dillər İnstitutunun fransız bölməsinə. II kursda bir partokrat balası azəri mənşəyimi söyəndə yumruqlarımı işə saldım. Nəticədə "burjua millətçisi" damğası ilə institutdan xaric edildim.**

Maral buynuzundan qayırılmış bu kreslonu alman cəngavərləri, SS zabitləri növbə ilə bir-birinə ötürüb. Ruhları sakit yatsın 1945-ci il Almaniya xarabalıqları altında - bu kreslo indi də etibarlı əllərdədir. Heydər Camal uzaq 1962-ci ildə institutdan qovulduğu zaman bir bu kresloya baxıb, sonra qarşısındakı nəhəng qara boşluğa. Moskvanın Kropotkinski döngəsindən ayrılaraq özünü həyatın dəli burulğanına atıb. Cahadın oğlu öz ilk cihadını o vaxt həyata keçirib. Yaddaşından silinməyən Şuşa dumanında öz üsyankar ruhuna qanad verib, bir-iki üsyan şeiri yazıb cib dəftərinə, sonra gedib əsgərliyə:

**- SSRİ-yə qulluq edəcəyimə and içmirdim deyə məni cərimə batalyonuna basdılar əvvəlcə. Sonra ruhi xəstələr dispanserinə. İstədikləri alınmadı. And içmədim. Tale məni Orta Asiyaya atdı, Pamir zirvələrinə qalxan alpinistlərə qoşuldum, SSRİ Alpinizm Cəmiyyətinin üzvü olmaq mənə həm ayda 80 rubl gətirdi, həm də ecazkar, sirr dolu yeni bir həyat...**

Söhbətimizin mövzusunu əvəzləmək istəyən Heydər bəy buna işarə verirmiş kimi əyləşdiyi yeri də dəyişir. Oturduğu qədimi alman kreslosundan qalxıb mətbəxə keçir, məni də dəvət edir ora, gözlərim qarşısında haradansa iri bir tacik çaydanı çıxararaq 3-4 çimdik çay qurusu atır içinə. Orta Asiya macəralarını xatirəsində diriltməkçün bir Daşkənd çayxanasının ovqatını yaradır öz ətrafında.

Çayı içincə- hə, yalan demirəm, - çayxana dəstərxanı üstə uzanıb mürgüləyən bir yorğun müştəri cildində hiss edirəm özümü.

**- Mənim kimi qarabağlı düşdüyü Düşənbədə də özü kimi bir qarabağlı axtarar. Hə, orda bir qarabağlı köhnə prokurorla dostlaşdım, arvadı koreyalı idi. Pulsuz günlərimin birində o dedi ki, bəs, Düşənbədəki koreyalıların məzarlığında iş var, sinədaşlarını əl arabasına qoyub dart apar axır ünvanına, yaxşı pul qazanarsan. Hə, acından ölməməkçün orda işlədiyim vaxtlar sanki iki səmanın qartalı idim - həm uca Pamir zirvələrini fəth edər, orda ölməzliyi duyar, həm də sonra bax, bu girdaba, məzarlığa qayıdardım. O təzadların içində ikən bir gün Pamir dağlarında yolumu azdım. Ərzağım tükəndi, acından lap halsızlaşsam da elə hey irəli gedir, itirdiyim yolu arayırdım. Dizlərim bükülüb yerə sərildiyim zaman bir də görürəm ki, uzaqdan bir çoban yüyürüb gəlir. Mənə yedizdirdiyi dadlı şorbanın adına "loğman" deyildiyini duyunca gözlərimə işıq gəldi az-az. Elə bildim ki, əfsanəvi Loğmanla görüşmüşəm. Bir-iki günə toxdayıb özümə təzəcə gəlmişdim ki, eşitdim buralarda, Pamirin ən uca zirvəsi istiqamətdə bir ziyarətgah var. Daxilimdən qopan bir pıçıltı idi, nə idi mənə deyən: "Canını aşağıdakı Koreya məzarlığından qurtar, ən yüksəkliklərdəki ilahi nöqtəni, məzarı ziyarət et! Hər iki səmanın qartalı ol. İstər fiziki, istər metafiziki aləmin fatehinə çevril". O ziyarətgahın yolunu yerli çobanlar da yox, dağlarda ağlını itirmiş köhnə bir rus sərhədçisi bilirdi. Tapdım onu birtəhər. Başladıq Pamir zirvələrinə doğru qalxmağa. Burnumuza dağ ayısının nəcis iyi dəyincə bələdçim olan-qalan ağlını itirdi. Sonra özü də itdi. Qaldım Pamir dağları ilə tək-tənha. Bir də ayıldım ki, üzərimə ayı gəlir. O, iki ayağı üstə qalxıb mənə sarı yeriyirdi. Elə-belə ayı deyildi, ziyarətgahların yolunu kəsən yad qüvvələrin nümayəndəsi idi elə bil.**

Qədim nağıl məntiqincə, qəhrəman gərək mütləq öz heyvani həmzadıyla görüşüb onu ram etsin, ilahi güc qazansın həmin an. Heydərdə də o vaxt sanki bu baş verir:

**- Anam "Mosfilm" kinostudiyasında yırtıcıları əhliləşdirərkən mənə demişdi ki, təhlükə yaransa, heyvanın göz bəbəklərinin içinə baxım. Baxdım. Bir də gördüm nəhəng ayı geri çəkilib qeyb oldu. Ziyarətgaha qədəm basdığım vaxt axşam namazımın tam vaxtı idi, həəə...**

***

İndi, bu iki səmanın qartalı əbədi olaraq öz Turanına qayıtdı. Göz yaşlarım məni boğur deyə indi sözü verirəm həyat yoldaşım İlhamiyyə Rzayevanın Heydər Camal barədə FB-də bölüşdüyü çox mənalı statusa. Məncə, Heydər Camalın bir bozqurd kimi Turana qayıdışını İlhamiyyə xanım bu statusunda əks etməyi bacarıb: **"Bu saatlarda Heydər Camalın nəşi uzaq Almatıda, böyük Turanın ürəyində, Pamir dağları ətəyində torpağa tapşırılacaq. Ruhu isə əminəm ki, Azərbaycanda, çox sevdiyi Şuşada əbədi məskən salacaq...Zahirən çox sərt görünən Heydər Camal inanılmaz yumor hissinə malik, pozitiv bir insan idi. Sanki bütün sualların cavabını bilirdi. İstənilən mövzuda onunla söhbət etmək mümkün idi və edirdik də... Həmidlə səhərəcən dayanmadan söhbətləşirdilər və onları dinləmək hədsiz dərəcədə maraqlı idi. Bu böyüklükdə bir dühanın artıq həyatda olmadığına inanmaq çətindir".**

❑ Həmid HERİSÇİ




## Son məzarı da türk yurdu oldu

**Rusiya İslam Komitəsinin sədri, ictimai xadim, ilahiyyatçı və filosof Heydər Camal dekabrın 6-da Qazaxıstanın Almatı şəhərində torpağa tapşırılıb. APA-nın məlumatına görə, bu barədə komitənin "VKontakte" sosial şəbəkəsindəki səhifəsində bildirilib. Mərhumla vidalaşmaq üçün onlarla insan Almatının Bağanaşıl qəbiristanlığına toplaşıb. Mərasim müsəlman adət-ənənələri ilə baş tutub. O, dekabrın 5-də müalicə olunduğu Almatı şəhərində vəfat edib.**

YENİ MÜSAVAT
N 272 (6593) 7 dekabr 2016

**Ölkədə mövcud iqtisadi vəziyyətlə bağlı özəl və dövlət qurumlarında ixtisarların olması işsizlərin sayının artmasına səbəb olub. Bu tendensiya isə işsizlərdən qazananların bazarlarına müsbət təsir edib...**

# İşsizlərin başına iş açan agentliklər- ilginc faktlar

## İşədüzəltmə agentliklərində insanların problemlərini həll edirlər, yoxsa...

Söhbət Bakıda olan işədüzəltmə agentliklərindən gedir. Hansı ki, insanlar tərəfindən onlardan son aylar sosial şəbəkələrdə xeyli sayda şikayətlər edilir.

Paytaxt ərazisində işədüzəltmə agentlikləri daha çox metronun "28 May" və "Nəriman Nərimanov" stansiyalarının yaxınlığında yerləşir. Agentliklər adətən dar məhəllələrdə, köhnə binaların altında, diqqət çəkməyən yerlərdədir. Bundan başqa, mərkəzdən nisbətən kənar ərazilərdə də bu kimi agentliklərə rast gəlinir. Onların əksəriyyəti internet üzərindən elanlarını da veriblər. İş axtaran şəxslər həmin nömrələrlə əlaqə saxladığı zaman əsasən konkret ünvan bildirilmir. İş axtaran hər hansı bir məşhur yerin qarşısına çağırılır, oradan agentliyin əməkdaşları gəlib, həmin şəxsi ofislərinə aparırlar.






Öyrəndik ki, əksər agentliklərdə demək olar ki, şərtlər eynidir. Yəni işə düzəlmək istəyən, agentlik tərəfindən təklif olunan işlə bağlı müqavilə bağlayan zaman 10 manat ödəniş edir və şəxsiyyət vəsiqəsini onlara verir. İşə düzəldikdən sonra isə maaşının yarısını agentliyə verib, şəxsiyyət vəsiqəsini geri alır. İşlədiyi yerin işçi ilə əmək müqaviləsi bağlaması və digər bu kimi sənəd işləri agentliyi maraqlandırmır. Onun işi yalnız işə düzəltməkdir. 10 manata bağlanan müqavilənin müddəti 3 aydır. Bu aylar ərzində agentlik səni müxtəlif işlərə göndərir. Heç biri alınmırsa, yenidən 10 manat ödəyib, müqavilənin vaxtını uzatmalısan...

Bu kimi agentliklərdən "Uğur", "Mansur", "Klass" və digərlərinin adlarını qeyd etmək olar. Bir çox işədüzəltmə agentliklərinin isə adı yoxdur. Sadəcə olaraq, "ofis" adlanırlar və içərisində ev alqı-satqısı, surətçıxarma kimi xidmətlər də fəaliyyət göstərir.

İşədüzəltmə agentliklərində hansı prosedurların getdiyini öyrənmək üçün biz də "iş axtaran" kimi bu agentliklərin birinə müraciət etmək qərarına gəldik.

Müraciət etdiyimiz metronun "Memar Əcəmi" stansiyasının yaxınlığında yerləşən "Xəzərsevis" MMC-də maraqlı məqamların şahidi olduq. Belə ki, adını çəkdiyimiz ofis həm ev alqı-satqısı, dərzi, həm də işə düzəltmə agentliyi kimi fəaliyyət göstərir. Nədənsə içəridə bütün işıqları söndürmüşdülər. Yarıqaranlıq otaqda işə düzəlmək istəyənlər növbə ilə ofisin xanım əməkdaşının qarşısındakı stulda əyləşib, nə bacardıqlarını söyləyirdilər. Sıra bizə çatdığı zaman eyni prosedurdan biz də keçdik. Öyrəndik ki, burada şərtlər digər agentliklərlə müqayisədə bir qədər yumşaqdır. Belə ki, təklif olunan işlə razılaşdıqdan sonra müqavilə bağlanır. Müqavilə üçün 5 manat 60 qəpik ödəniş etməlisən. Yalnız bundan sonra işə götürən şirkətin telefon nömrəsi və digər əlaqə vasitələrini ala bilərsiz. İlk maaşın isə 40 faizi agentliyə ödənilməlidir. Bundan sonrasına isə agentlik qarışmır.




Müşahidə etdik ki, işədüzəltmə agentliklərində əsasən satıcı, aşpaz, sürücü, ofisiant kimi işlər təklif olunur. Maaş isə adətən 350-400 manat civarındadır. Bütün bunlar eyni qayda üzrə bizə də təklif olundu. Daha ətraflı məlumat almaq üçün isə bildirdilər ki, müqavilə bağlamalıyıq.

**Orada olduğumuz zaman işədüzəltmə agentliklərində başlarına maraqlı hadisələr gələn şəxslərlə də tanış olub, problemlərini dinlədik. Rafiq Bayramov adlı şəxslə söhbətimiz zamanı bildirdi ki, metronun "28 May" stansiyasının yaxınlığında yerləşən bir çox agentliklərə müraciət ediblər. Ancaq işləri alınmayıb:** "İnternetdən nömrələrini götürüb, zəng eləyib getdim. Ofis Səməd Vurğun parkının yaxınlığında, binanın zirzəmisində yerləşirdi. 10 manat ödəyib müqavilə bağladıqdan sonra məni şirniyyat mağazasına göndərdilər. Orada iş vaxtı 12 saat, maaş isə 250 manat idi. Elə bir gün işləmişdim ki, agentlikdən zəng elədilər ki, 125 manat ödəməlisiniz. Yoxsa zəng edib, sizi işdən qovduracağıq. Çarəsiz qalıb, aparıb 125 manatı ödədim. Bir həftə sonra isə məni işdən çıxardılar. İşlə bağlı verilən çox elanlarla maraqlanmışam. Əksəriyyəti ya dərman, ya da kosmetika satanlardır. Deyirlər ki, gəl dərman sat, sonra bura adam gətir. O da nə satacaqsa həmin satışdan faiz alacaqsan. Bu da olacaq əlavə gəlirin. Həmin yerlərdə də əsas tələ ilkin olaraq ödənilən 10 manatdır".

**Adının açıqlanmasını istəməyən iş axtaran xanımla da söhbət etdik. Xanım bildirdi ki, agentliklər vasitəsilə işə düzəlməyə çalışıb və bunu da bacarıb. Ancaq sonrakı proseslər onu işdən ayrılmağa məcbur edib:** "Nərimanov Rayon Məhkəməsinin arxasında yerləşən "Arzu" işədüzəltmə agentliyinə müraciət etmişdim. Şərtlər belə idi ki, ilk olaraq 10 manat ödəməli, daha sonra isə maaşın 50 faizini agentliyə verməli idim. Əgər iş alınmasa, agentlik digər işə yönəldir. Bu dəfə isə ödəniş etmirsin. Şəxsiyyət vəsiqəmi verib, 10 manat da ödəyib müqavilə bağladıqdan sonra Xarici İşlər Nazirliyi ilə üzbəüz yerləşən hüquq məsləhətxanasına qeydiyyatçı kimi göndərdilər. Getdiyim işdə gördüklərimdən dəhşətə gəldim. Məlum oldu ki, bunlar qeydiyyat şöbəsinə işçi yox, əxlaqsız axtarırlar. İşdən ayrılıb, məni işə göndərən agentliyə üz tutdum. Onlar da mənə bildirdilər ki, səni digər vəkilin yanına göndərmişdik. Əslində isə arqumentləri əsassız idi. Çünki mən ora qeydiyyat şöbəsinə getmişdim. Hər hansı bir vəkilin yanına yox. Daha sonra məni "Əhmədli" stansiyasının yaxınlığında bir xəstəxanaya, yenə də qeydiyyat şöbəsinə göndərdilər. Orada da bildirdilər ki, maaş almaq üçün gərək 25 xəstə tapıb gətirəsən. Oradan da ayrıldım. Yəni bu agentliklərin çoxu işçini müqavilə xatirinə hara gəldi göndərirlər. Əsas problem də budur. Adi bir vərəqdə də müqavilə bağlayırlar".

Qeyd edək ki, ölkədə vətəndaşlarının işlə təmin olunması ilə bağlı fəaliyyət göstərən rəsmi qurum Dövlət Məşğulluq Xidmətidir. Bu xidmətin paytaxtla yanaşı, bütün rayonlarda şöbələri var. Xidmətin yaydığı məlumata görə, təkcə bu il Dövlət Məşğulluq Xidmətinə müraciət edənlərdən 52 minə yaxın vətəndaş işlə təmin olunub. Məşğulluq mərkəzlərinə boş iş yerləri haqqında məlumat müəssisələr tərəfindən rəsmi olaraq verilir. Digər agentliklərin isə bu mərkəzlə hər hansı bir əməkdaşlıqlarının olmadığı bildirilir.

Dünyada ilk işədüzəltmə agentliyi 1893-cü ildə ABŞ-da Fred Uilson adlı şəxs tərəfindən açılıb. Dünyada ikinci belə agentliyin isə 1906-cı ildə Ketron Feltonun San-Fransiskoda baş verən zəlzələnin fəsadlarına qarşı yardım məqsədilə yaratdığı bildirilir.

Hazırda Avropada bu cür agentliklər fəaliyyət göstərirlər. Orada da işədüzəltmə agentlikləri ilə bağlı xeyli sayda neqativ məlumatlar yayılıb. Misal üçün, bir neçə il öncə Almaniyada işədüzəltmə xidmətinə müraciət edən qızın başına gələn hadisə mətbuatda səs-küyə səbəb olmuşdu. Belə ki, ofisiant işi axtaran qız məhəbbət evlərindən birində fahişə kimi işləməyə göndərilmişdi. Onu da vurğulayaq ki, artıq Avropada iş axtaranlar, bunu daha çox saytdakı elanlara əsasən etdikləri üçün bu cür agentliklərə ehtiyac bir o qədər də yoxdur.

❑ **Əli RAİS**



# Banklar borcluları kütləvi şəkildə məhkəməyə verir

## Ekspertlər bildirirlər ki, kütləvi məhkəmə çəkişmələri bankların xeyrinə deyil

**Ölkə banklarının durumu pisləşsə də, son ümid kimi vətəndaşlara hədə-qorxunu seçiblər. Üstəlik, banklar vətəndaşları kütləvi şəkildə məhkəməyə verərək ödənilməyən kreditlərini tələb edirlər. Bu tendensiya bir müddət səngisə də, yenidən müşahidə olunur. Ekspertlər isə bildirirlər ki, bankların məhkəməyə müraciəti çıxış yolu deyil. Bu, onsuz da bankların pisləşən durumuna kömək etməyəcək.**

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, əslində əhalinin kifayət qədər böyük sayda kredit borcu var: "Ümumi kredit borcu olanların sayı 2 milyon 300 min nəfərə yaxındır. Bunun da böyük əksəriyyəti problemli kreditlər kateqoriyasına daxil olmağa başlayıb. Çünki insanların gəlirləri azalıb, iş yerlərini itiriblər, kreditləri ödəmək qabiliyyəti aşağı düşüb. Düşünmürəm ki, yüz minlərlə insanı məhkəmələr vasitəsilə məsuliyyətə cəlb etmək, yaxud həbs etmək, hər hansı bir qərarlarla yüz minlərlə insanı banklara uduzdurmaq mümkün olacaq. Bu, mümkün olmayacaq. Günün birində hökumət orqanları, dövlət orqanları, məhkəmə sistemi də anlayacaq ki, bu qədər insana məhkəmə vasitəsilə hər hansı təzyiq göstərmək mümkünsüzdür. Çünki bu dəqiqə istənilən rayon məhkəməsinə zəng etsək, görərik ki, banklarla bağlı işlər çoxluq və əksəriyyət təşkil edir. Bəzi bank işləri kreditlərlə bağlıdır, getdikcə də artır. Bir müddət sonra bankların, hakimlərin bu tipli işlərə baxmağa fiziki imkanı da olmayacaq. Onsuz da əvvəl-axır ciddi siyasi qərar olmalıdır, hökumət buna məcburdur. Amma vaxt uzandıqca, hökumət tərəfindən məsələnin həlli uzadıldıqca, problemli kreditlərin həcmi artır, həm bank sektorunun gəliri azalır, həm də işləmə qabiliyyətini itirir. Çünki kreditlərini geri ala bilmir, gəliri azalır və növbəti kredit xətləri açmağa imkanları tükənir".

**Ekspert Əkrəm Həsənov isə bildirib ki, bankların son vaxtlar məhkəmələrə müraciəti kütləvi hal alıb:** "Əksər hallarda vətəndaşlar özlərini müdafiə edə bilmirlər. Onlar yardımsız qalanda, banklar birmənalı olaraq prosesi udurlar. Həm də banklar məhkəməni öz istədikləri kimi, istədikləri şəkildə udurlar. İstənilən halda vətəndaşın banka borcu varsa, ödəniş etmirsə, bank məhkəməyə verib udacaq. Amma söhbət ondan gedir ki, hansı məbləği tələb edəcək? Yəni bir var vətəndaş məhkəmə prosesində etiraz edib, faiz dərəcələrinin çox yüksək olduğunu bildirir, bunun azaldılmasını tələb edir. Yaxud zaminin məsuliyyət daşımadığını deyir. Mübarizə aparan vətəndaşlar prosesdə nəyəsə nail olurlar. Əgər məhkəmədə vətəndaşlar özlərini müdafiə edirlərsə, vəziyyət acınacaqlı olmur. Amma əlbəttə, vətəndaşlar özlərini müdafiə etmirlərsə, vəziyyət birmənalı şəkildə bankların xeyrinədir. Təəssüf ki, əksər hallarda məhz belədir. Vətəndaşlarda belə bir əhval-ruhiyyə var ki, bankları məhkəmədə udmaq mümkün deyil. Bu fikri banklar özləri dövriyyəyə buraxırlar. İstəmirlər ki, vətəndaşlar onlara qarşı məhkəmələrdə mübarizə aparsınlar. Amma demək olmaz ki, banklar həmişə vətəndaşları udur. Keçən həftə Antikollektor bir bankı məhkəmədə udub. Biz zamini müdafiə edirdik. Məhkəmə onu zaminlik öhdəliyindən azad etdi".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 272 (6593) 7 dekabr 2016



# İqtisadi müharibənin qurbanları

**Xalid KAZIMLI**

**Çoxlarınız görmüsünüz, "Nəsimi" filmində ibrətamiz bir epizod var.**

Bir çoxlarının "fateh" deyibən yerə-göyə sığdırmadığı işğalçı qəsbkar Əmir Teymurun ordusu Şirvan dövlətinin hüdudlarına dayanır, Şirvanşah İbrahim özünü və dövlətini qorumaq üçün ona xərac verməyə məcbur olur, xəzinədə yetəcək qədər qızıl olmadığından şah xalqa müraciət edir və saray qapısında uzun növbələr yaranır.

Bənzər vəziyyət hazırda Türkiyədə yaranıb. Bu dəfə Türkiyənin üzərinə qılınc-qalxanlı, toplu-mancanaqlı hücum edən yoxdur və o, hansısa yadelliyə xərac verməyə hazırlaşmır.

Türkiyəni sıxan yadelli valyutanın milli pulu əzməsidir və sırf bu səbəbdən ölkə başçısı xalqa müraciət edib ki, öz saxlanclarındakı xarici valyutanı, dolları lirəylə dəyişsinlər, lirə dəyərdən düşməsin. Üstəlik, bu yolla dollar alınması da azalmış olar və xarici valyutanın bahalaşması tendensiyasında əyilmə, sınma baş verər.

Öz rəhbərini sevən bütün xalqlar kimi, hazırda Anadolu xalqları da bankların qarşısında uzun növbələr yaradıblar və əllərindəki, ovuclarındakı dolları lirəyə dəyişirlər. 10 dollarını dəyişmək üçün növbəyə duranlar da var, 200 min dollarını bir dəfəyə dəyişənlər də.

Hələlik bu yük sadə xalqın boynundadır, dollar milyarderlərindən səs çıxmır. Prezident dolları lirəyə dəyişmək aktını bəzi milyonçuların boynuna birtəhər qoyur - üzə salaraq, şirnikləndirərək və s.

Söz yox, dar günlərdə xalq səfərbər olaraq öz dövlətini (həm də özünü) qorumalıdır, onu ayaqda tutmaq üçün maddi mənada var-yoxundan keçməlidir, ancaq bu cür, "suda boğulanın saman çöpünə əl atması"na oxşayan addımlar effekt verəcəkmi?

Xeyr, bu, Türkiyənin yarasına məlhəm olmayacaq. İqtisadi böhranın səbəblərini araşdırmaq və tapmaq lazımdır.

Belə anlaşılır ki, iqtisadiyyatı heç də karbohidrogen ehtiyatlarının xammal şəklində satışı üzərində qurulmayan Türkiyədə getdikcə şiddətlənən bu böhran iqtisadi səciyyədən çox siyasi xarakter daşıyır.

Əksinə, dünya bazarında yanacağın ucuzlaşması Türkiyənin xeyrinəydi, onun daha da rentabelli iqtisadiyyat qurmasına yardımçı olmalıydı. Ancaq əksinə oldu.

Bu ölkənin hazırkı rəhbərliyinin ötən il Rusiya ilə, bu il ABŞ-la, Avropa ilə, ondan bir-iki il əvvəl İsrail və bəzi ərəb ölkələri ilə yaşadığı problemlər dolayısı ilə özünü iqtisadiyyat müstəvisində göstərir.

Türkiyədə getdikcə güclənən və artıq dövlət rəhbərlərinin də dilindən tez-tez səslənən belə bir rəy var ki, Türkiyəni silsilə terror aktlarıylla, hərbi çevriliş cəhdiylə ram edə bilməyən xarici güclər bu dəfə iqtisadi-maliyyə sferasında təxribat törədirlər və bunun nəticəsində lirə dəyərini itirir, iqtisadiyyat zəifləyir, əhali kasıblaşır.

Deyəsən, doğrudan da bir dövlətlə mübarizənin ən etibarlı və effektiv üsulu ona qarşı iqtisadi diversiyalar törətmək, açıq və gizli sanksiyalarla onu sarsıtmaqdır.

Bir neçə il öncə ABŞ və Avropanın güclü dövlətləri İranın nüvə silahı yaratmaq niyyətini, eləcə də Rusiyanın qabarmaqda olan neo-imperiya ambisiyalarını bu üsulla, onları böyük neft gəlirlərindən məhrum etməklə, iqtisadi baxımdan çökdürməklə boğmaq qərarına gəldilər və öz hədəflərinə bir xeyli yaxınlaşdılar.

Budur, ən azı iki ildir Rusiya öz canıyla əlləşir. Düzdür, bu dövlətin qonşulara, Avropa dövlətlərinə qıcanmış dişləri hələ də ağarmaqda, iti caynaqları tez-tez onu-bunu yaralamaqdadır, amma 3 il öncəki aqressiya bir qədər azalıb, mürtəce planların (SSRİ-ni başqa adla sürətlə bərpa etmək) reallaşdırılması ləngiyib.

Hazırda bizim üzləşdiyimiz iqtisadi böhran Rusiyaya yönəlmiş iqtisadi savaşın nəticəsində meydana çıxıb. Neftin qiyməti köhnə məzənnəsində qalsaydı və hər gün ölkəyə milyonlarla neft dolları gəlsəydi, biz bu günə düşməzdik, milli valyutamız ucuzlaşa-ucuzlaşa getməzdi.

Nə yazıq ki, biz bu yeni növ müharibəyə - iqtisadi savaşa hazır deyildik və indi süni şəkildə yaradılan böhrandan əziyyət çəkirik. Manatın dəyərdən düşməsi insanların rifah halını pisləşdirir, iqtisadi tənəzzül yaradır.

Bu, heç də qlobal böhran-zad deyil. İqtisadiyyatını düzgün relslər üzərində quran, sağlam lokomotivlərin arxasına qoşan ölkələrdə yalnız təbii, ikirəqəmli inflyasiyalar müşahidə olunur, bu da onların güzəranlarına təsir etmir, yola verə bilirlər.

İndi biz necə etməliyik, əl-qolumuzu bağlayıb oturmalı, böyük qonşularımıza - Rusiya, İran və Türkiyəyə qarşı aparılan iqtisadi müharibənin bitməsini gözləməliyik?

**Türk lirəsi xarici valyuta olan dollar qarşısında dəyər itirdikcə, qardaş ölkədə durum ciddiləşir. Türkiyə prezidentinin bu istiqamətdə çağırışı isə bir neçə gündür ki, lirənin durumuna cüzi də olsa müsbət təsir göstərir. Rəcəb Tayyib Ərdoğanın xalqa müraciətindən sonra insanlar valyutadəyişmə məntəqələrinin qarşısında növbəyə dayanıblar. Onlar dövlət başçısının dediyi kimi, boxçalarında olan dollarları lirəyə çevirərək milli valyutanın dəyər itirməsinin qarşısını ala biləcəklərinə inanırlar. Həmçinin Türkiyənin dollardan imtina etməsi, ilkin olaraq Rusiya ilə alqı-satqının bu iki ölkənin valyutasına əsasən aparılması kimi fikirlər də ortaya atılıb. Bu, mümkündürmü və effekt verəcəkmi? Türkiyə dollardan imtina edib xilas olacaqmı? Həmçinin Azərbaycan da bu üsuldan istifadə edə bilərmi? Ekspertlər musavat.com-a məsələ ilə bağlı fikirlərini bölüşüblər.**

# Azərbaycan dollardan imtina edə bilməz, çünki...

## Ekspertlər deyir ki, Türkiyədə dollara qarşı "cəbhə" fayda verməyəcək

**Ekspert Natiq Cəfərli** musavat.com-a deyib ki, lirənin cüzi də olsa, möhkəmlənmə cəhdləri Ərdoğanın çağırışı ilə bağlı deyil: "Birjalarda dəyişən məzənnə bununla bağlı deyil. Dünyada dolların avroya qarşı bir az dəyər itirməsindən sonra belə bir şərait yaranıb. Ərdoğanın çağırışı təəssüf ki, populizmə hesablanmış və daxili bazarın sakitləşdirilməsinə yönələn sözlü müdaxilədir. Rusiya ilə Türkiyə arasında bu ölkələrin valyutalarında alış-verişə keçid mümkün deyil. Çünki Türkiyə Rusiyadan 24 milyard dollarlıq mal alır. Amma Rusiyaya cəmi 6 milyard dollarlıq məhsul satır. Burada 18 milyardlıq bir açıq yaranır. 18 milyard dollarlıq açığı rubla çevirib, bunu rublla ödəmək mümkün deyil, Türkiyədə bu qədər rubl yoxdur. Türkiyə bu rublu da xarici valyuta ödəyərək almalıdır, rubl kəsən maşın alası deyil ki? Rublu əldə etmək lazımdır. Bunun üçün isə mütləq Rusiya birjasına çıxıb dollar satıb, rubl alıb ödənişi həyata keçirmək lazım olacaq. Bu da obrazlı desək, sol qulağı sağ əllə qaşımağa bərabərdir. Belə bir addımı atmağın heç bir məntiqi olmur".



**Ekspertin sözlərinə görə, ikinci önəmli məsələ iş adamlarının özünü sığortalanaması məsələsidir:** "Məzənnənin tez-tez oynaması, həm türk lirəsinin, həm rus rublunun məzənnəsinin tez-tez dəyişməsi, gündəlik ciddi oynaqlığın olması iş adamlarına müəyyən itkilər gətirə bilər. Onlar itkiləri sığortalamaq üçün müqavilələri dollar üzərindən edirlər. Açığını desəm, belə bir çağırışın olması, sadəcə, psixoloji bir çağırışdır. əhaliyə bir psixoloji təsir vasitəsidir, lirəyə olan basqıları azaltmaq cəhdidir. Amma buna baxmayaraq, bunun həyata keçirilməsi mümkünsüzdür. Yaxın gələcəkdə bununla bağlı praktiki addımlar atmaq mümkün olmayacaq".

**N.Cəfərli qeyd edib ki, Azərbaycanın da bu kimi üsulda istifadə etməsi məntiqsizdir:** "Azərbaycan əsas neft satır. Əsas ticarət tərəfdaşı İtaliyadır. Azərbaycan neftini satıb, əvəzində İtaliyadan manat alıb o manatı neyləyəcək? Azərbaycana valyuta, dollar lazımdır ki, öz daxili tələbatını, idxaldan asılılığını ödəsin. Bunun üçün aldığı manatı onsuz da yenidən dollara çevirməlidir. Məsələn, dərmanda yüz faizlik idxaldan asılılığımız var. Manatla hansı ölkədən dərman almaq mümkündür? Azərbaycan manatı konvertasiyaya uğramış valyuta deyil. Ona görə Azərbaycanın da belə bir addım atması mümkünsüzdür, cəhd etməsi belə, açığı, ancaq təbəssüm doğura bilər".

**Ekspert Vüqar Bayramov da qeyd edib ki, Türkiyədəki "dollar öldürmə" cəhdinin uğurlu olması mümkünsüzdür. Yəni Rusiya və Türkiyənin dollarsız xarici ticarət anlaşması ABŞ pulunun məzənnəsinə təsir edə bilməz:** "Bu razılıq dolların məzənnəsinə təsir etmir və edəcəyi də gözlənilmir. Dünya ehtiyatlarının 64 faizinin saxlandığı pul vahidinə aralarındakı illik ticarət dövriyyəsi 23,9 milyard dollar olan ölkələrin razılaşması aydındır ki, təsir etməyəcək. Avronun son iki gündə möhkəmlənməsi isə daha çox İtaliyadakı seçkilərlə bağlıdır. Digər tərəfdən, hətta sözügedən ölkələr xarici ticarətdə başqa valyutadan istifadə etsələr də belə, bu, vətəndaşların və eləcə də şirkətlərin dollarlaşma səviyyəsini azaltmayacaq. Yenə də riskləri sığortalamaq üçün hətta biznes aktivlərinin belə əhəmiyyətli hissəsini dollarda saxlamağa üstünlük verəcək. Yəni dövlətlər anlaşmada dollardan imtina edə bilər, amma vətəndaşlar və sahibkarlar bunu etməyəcəklər. Eyni zamanda belə anlaşmaların nə qədər uzun müddətli olması və necə monitorinq edilməsi də müzakirə tələb edən məsələlərdəndir. Tarixən belə cəhdlər çox olub, amma dollar güclənməkdə davam edib. Bu baxımdan, hələlik dolların məzənnəsinə təsir edə biləcək yeganə ölkə elə ABŞ-ın özüdür. Amerikanlar isə hələlik möhkəm dollardan məmnundurlar".

**AzTV-nin keçmiş əməkdaşı, hazırda Region TV-də çalışan jurnalist İbrahim Məmmədov isə sosial şəbəkədə məsələ ilə bağlı paylaşım edib və dediklərini əsaslandırmağa çalışıb:** "Türkiyənin prezidenti R.T.Ərdoğanın Rusiya, Çin və İranla öz aralarında apardıqları ticarətdə dollardan imtina edəcəkləri haqda bəyanatının təsirli nəticələri ola bilər. Qərar qəti olarsa, təqribi hesablama ilə Türkiyədə dollara illik tələbat təqribən (nəzəri olaraq bütün sahələri əhatə edərsə-red.) 45 milyard dollar aşağı düşə, lirəyə tələbat isə 60-70 milyard lirə arta bilər. Bu, 4 dövlətin bir-biri ilə ticarətindəki bəzi istiqamətlərdə dollar virtual orientasiya kimi qalsa da, ona fiziki tələbatı azalda bilər. Yəni həmin istiqamətlərdə bankdan dollar istəyənlərin sayı düşə bilər. Amma bu, qlobal miqyasda dolların inflyasiyasına (məzənnəyə) təsir etməyəcək. Nəzəri olaraq hesab etsək ki, milli valyutalarla hesablaşma bütün sahələri əhatə edəcək, onda belə bir mənzərə yaranır: təkcə Türkiyə ilə Rusiya arasında ticarət dövriyyəsi ötən il aşağı düşsə də ortalama ildə 25 milyard dollardır. Deməli, gələn ildən bu bazarda dollara tələbat 25 milyard aşağı düşə bilər. İranla Türkiyə arasında ticarət dövriyyəsi ildə ortalama 10 milyard dollar həcmindədir. Türkiyə ilə Çin arasında ticarətin həcmi 2015-ci ildə 30 milyard dollar civarında olub. Bütövlükdə 65 milyard dollar edir. Ticarət balansları Türkiyənin əleyhinə olduğundan 65 milyardın təqribən 40-45 milyardı həcmində Türkiyə idxal edir. Yəni türkiyəli sahibkarlar bu sadalanan ölkələrdən mal və xidmət almaq üçün banklardan 40-45 milyard dollar alırlar. İndi qərar qəbul edildiyi təqdirdə Türkiyədə il ərzində dollara tələbat təqribən 45 milyard aşağı düşə bilər. Türkiyənin bu ölkələrə ixrac etdiyi mallardan daxil olan 20 milyard dollar isə lirə ilə *(70 milyard lirə)* əvəzlənəcək. Hesablamalar təqribidir. Türkiyədən mal alanlar dollar yox, lirə alacaqlar. Ancaq təbii ki, bütün ticarəti milli valyutalara keçirmək mümkün olmayacaq, və nəzərə alsaq ki, neftə və qaza şamil olunması çətin məsələdir, onda nəzəri olaraq qəbul etdiyimiz rəqəmlər xeyli kiçilir. Bununla belə, müəyyən bir həddə, bir tərəfdən dollara tələbat azalacaq, o biri tərəfdən lirəyə tələbat artacaq. Bununla belə, dollar yenə əsas yığım vasitəsi kimi qalacaq. Ancaq nəzərə almaq lazımdır ki, nə qədər cəhd edilsə də, indiyə qədər bu ideyanı həyata keçirmək mümkün olmayıb. Beynəlxalq siyasi vəziyyət buna imkan verməyib. Bu dövlətlərin ciddi siyasi iradə nümayiş etdirməsini tələb edir. Bu, başqa məsələdir ki, ABŞ-ın bu ölkələrlə münasibəti yaxşılaşar və antidollar siyasəti də gündəlikdən çıxa bilər".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 272 (6593) 7 dekabr 2016

# "Rusiya Türkiyə vasitəsilə Azərbaycana təsir edir" iddiasına iki reaksiya

**Politoloq Qabil Hüseynlinin axar.az saytına açıqlamasında Rusiya-Türkiyə münasibətlərinə toxunub. O, Kremlin Türkiyə üzərindən Azərbaycana təsir etmək istəyində olduğunu söyləyib.**

Onun fikrincə, Moskva Ankaraya Suriyada cüzi güzəştlər etməklə onu razı salmağa çalışır ki, Azərbaycana təsir göstərsin. Politoloq həmçinin əsas narahatlıq doğuran fikirlərindən biri kimi onu da qeyd edib ki, Rusiya Türkiyə vasitəsilə Dağlıq Qarabağ ətrafındakı rayonları qismən azad etməklə erməniləri qane edəcək statusu bizə qəbul etdirməyə çalışır.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı qardaş Türkiyənin Rusiyanın oyununa gedəcəyinə inanmır:** "Rusiya ilə Türkiyənin yaxınlaşması, gələcəkdə daha yüksək səviyyədə münasibətlərin qurulması mümkündür. Artıq bunun ciddi rüşeymləri görünməkdədir. Suriyada Türkiyə və Rusiyanın maraqları fərqlidir. Güman etmirəm ki, bu iki dövlətdən biri Suriya məsələsindəki maraqlarından imtina eləsin. Ola bilər ki, onlar Suriya siyasətlərində müəyyən korrektələr etsinlər. Biri digərinə doğru dövlət və cəmiyyətlərinə ziyan gətirməyəcək güzəştlər edə bilərlər. Amma heç bir halda Azərbaycanla bağlı Türkiyə Rusiyaya hər hansı bir güzəştə getməz. Bu siyasətin aparılması mümkün deyil. Son illərdə Türkiyə hökumətinin, Ərdoğan hakimiyyətinin Azərbaycanın işğal olunmuş torpaqları ilə bağlı dəyişilməz mövqeyi var. Bu, Azərbaycanın ərazi bütövlüyünün qəbul olunması, işğal olunmuş torpaqların azad edilməsidir. Bu Ərdoğan tərəfindən açıq şəkildə bildirilib. Bu gün Türkiyə prezidenti və qardaş ölkənin xarici işlər naziri Mövlud Çavuşoğlu Azərbaycanın işğal olunmuş torpaqları ilə bağlı daha həssas mövqe nümayiş etdirirlər. Sürix protokolunun imzalanmasından sonra Türkiyə və Azərbaycana təzyiqlər edildi. O zaman Türkiyə Ermənistanla sərhədlərin açılması üçün müəyyən addımlar ata bilərdi. Lakin xalqın ciddi müqaviməti ilə qarşılandı. Eyni zamanda Azərbaycan dövləti və cəmiyyətinin də sərt reaksiyası nəzərə alındı. Türkiyə və azərbaycanlı millət vəkillərinin Bakıda birgə keçirilən tədbiri və yekunda qəbul edilən bəyanatın da burada böyük rolu oldu. Sürix protokolu kağız olaraq kənarda qaldı. Onun arxasında Minsk Qrupunun bütün həmsədrləri dayanırdı. Həmsədrlərin təzyiqlərinə baxmayaraq, Türkiyə buna getmədi. İndi Rusiya ilə münasibətlərin yaxşılaşması naminə Azərbaycanın qurban verilməsi perspektivini görmürəm. Çünki bu, Türkiyə və Azərbaycan cəmiyyətləri tərəfindən çox pis qarşılanar. Faktiki olaraq, Türkiyə və Azərbaycan arasında bütün münasibətlər qırıla bilər. Tamamilə əminəm ki, Ərdoğan kimi ağıllı bir siyasətçi və onun komandası bunun fərqindədir. Ona görə də mən bu gümanın olacağını istisna edirəm".



**Fəzail Ağamalı:** "Ankaranın Azərbaycanı qurban verməsi perspektivini görmürəm"



**Fərəc Quliyev:** "Azərbaycanla Türkiyəni həm də düşmənlərimiz birləşdirir"

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev bildirdi ki, Rusiya qədər Türkiyənin də Azərbaycanla bağlı maraqları var:** "Dost, qardaş ölkə olmazdan öncə elə strateji yerdə Azərbaycan yerləşir ki, Türkiyənin ölkəmizlə bağlı dövlət maraqları var. Bütün gedişatlar onu göstərdi ki, Azərbaycanla Türkiyəni həm də düşmənlərimiz birləşdirir. Azərbaycana qarşı münasibətdə düşmənlərimiz gördülər ki, bu iki dövlət ayrı-ayrılıqda qala bilmirlər. Türkiyə ən azından Azərbaycanla bağlı öz dövlət maraqlarını heç zaman qurban verməz. Türkiyə Azərbaycanın maraqlarını heç zaman qurban verməyib, bundan sonra da verməyəcək. Suriyada isə onsuz da Türkiyə və Rusiya anlaşa bilmirlər. Türkiyə prezidenti açıq şəkildə yaxınlarda qeyd etdi ki, Suriyada Bəşər Əsəd hakimiyyətini devirmək istəyir. Bəzi məsələlərdə yaxınlaşma olsa da, prinsipial məsələlərdə biri digərinə güzəştə getmir. Hər kəsin bu məsələlərə subyektiv yanaşması var. Türkiyə, sadəcə, keçmiş müttəfiqlərinə çatdırmaq istəyir ki, mən digər tərəfdə ola bilərəm. Bütün hallarda düşünmürəm ki, Türkiyə tam olaraq Rusiyanın yanında olacaq. Azərbaycan mövzusunda Türkiyənin tam güvənli davranacağını əminliklə demək mümkündür. Hər hansı bir oyunla bağlı Türkiyənin Azərbaycanla əlaqədar güzəştə gedəcəyinə inanmaq mümkün deyil. Bəzi rayonların qaytarılması ilə bağlı məsələyə gəlincə, Rusiya ilə Türkiyə olmasa belə, Azərbaycan bununla razılaşa bilməz. Bizimlə savaşan Rusiyadır. Düşünürəm ki, Rusiya zəiflədikcə Dağlıq Qarabağ və ətraf rayonlardan geri çəkilməyə məcbur olacaq. Bu məsələlərdə çox nikbinəm".

❑ **Cavanşir ABBASLI**

# Mosul əməliyyatının taleyində İran amili




## Qərb və Türkiyə İrana yaxın hesab etdiyi könüllü birliklərin Mosula girməsinə qarşıdır, bu isə əməliyyatı uzadır

**Artıq iki aydır davam edən Mosul əməliyyatının nəticələri açıqlanıb. İraq mediasının xəbərinə görə, əməliyyatın başladığı gündən bu yana Mosul ətrafında 100-dən bir qədər az kənd İŞİD-dən azad edilib. Bundan başqa, Mosulun özündə də bir sıra məhəllələr terrorçulardan təmizlənib. Ancaq İŞİD-in şəhər ətrafını və məhəllələri minalaması, tez-tez minalanmış avtomobillərdən istifadə etməsi əməliyyatın sürətini azaldır.**

Əməliyyatın gedişində İraq hərbi birlikləri Mosul ətrafında 53 neft quyusunu nəzarət altına alır. Ümumilikdə isə əməliyyatlar başlayandan bu günə qədər 1855 kv.km ərazi İŞİD-dən alınıb. Bu müddətdə İŞİD-ə məxsus 239 minalanmış avtomobil məhv edilib. Mosulun cənubundakı əl-Buseyf məntəqəsi də daxil olmaqla, Mosulun sol sahilində 23 məhəllə azad edilib.

Mosulun qərb hissəsində yerləşdirilən "Həşdi Şabi" qüvvələri isə yalnız ətraf ərazilərdə əməliyyat aparır. 1800 kv.km ərazini nəzarət altına alan "Həşdi Şabi" 130 kəndi nəzarəti altına alıb.

Qeyd edək ki, oktyabrda başlayan Mosulun azad edilməsi əməliyyatı son iki ildə bir neçə dəfə təxirə salınıb. Məsələ ondadır ki, Mosul özü çox həssas bölgədir. Müharibədən əvvəl 2 milyon əhalisi olan Mosul çox mühüm əhəmiyyət daşıyan, neftli bölgə olmaqla yanaşı, zəngin etnik və dini fərqliliyə malikdir. Mosulda ərəblər, türkmənlər, türklər, süryanilər, yəhudilər və başqa xalqlar, o cümlədən sünni, şiə, yezidi, xristian, yəhudi və daha neçə din, məzhəb və təriqət ardıcılları yaşayır. Bu müxtəliflik və şəhərin quruluşu əməliyyatın sürətinə təsir edir, onu daha da çətinləşdirir. Mütəxəssislər Mosul əməliyyatının bir neçə ay uzana biləcəyini ehtimal edirlər. Bunun isə bir sıra obyektiv və subyektiv səbəbləri var.

Mosul 2014-cü il iyunun 10-da İŞİD və onu dəstəkləyən Səddam Hüseyn ordusunun keçmiş zabitlərinin qurduğu silahlı birləşmələr tərəfindən zəbt olunub. Hazırda şəhərdə 1 milyondan az insanın yaşadığı güman edilir. Şəhərin böyük olması və eləcə də İŞİD-in qəddar metodları İraq ordusunun irəliləməsinə mane olur.

Bu səbəbdən də əməliyyatın ilk günlərində İraq ordusu və digər silahlı birləşmələr sürətlə irəliləsə də, sonradan bu sürət yavaşıdı. Xüsusən də şəhərin kənar məhəllələrinə daxil olan İraq ordusu burada ciddi müqavimətlər, xüsusən də minalanmış ərazilər və kamikadze hücumları ilə qarşılaşdı. Daha bir maneə isə siyasi səbəblərlə bağlıdır.

Qeyd edək ki, Mosul əməliyyatına 100 mindən çox silahlı birləşmə qatılıb. Amma bu, ümumi saydır. Əməliyyatda xeyli az qüvvə iştirak edir. Əməliyyatın əsas qüvvəsi say baxımından İraq ordusu və polisidir. Bundan sonra şərq hissədən Şimali İraq kürd administrasiyasının peşmərgə silahlıları, Türkiyə və ABŞ-ın təlim keçdiyi yerli türkmən və sünni ərəb tayfa silahlıları və Həşdi Şabi - İraq Konüllü Ordusunun birlikləri var.

Hazırda əməliyyatı aparan İraq ordusunun xüsusi təyinatlılarıdır. Peşmərgə yalnız Mosul ətrafında, xüsusən də Ərbil istiqamətindəki kənd və qəsəbələri ələ keçirərək nəzarət altına alır. Çünki Bərzani Mosul əməliyyatından sonra bölgədə daha böyük əraziləri ələ keçirməyə çalışır. Bu səbəbdən də Mosul əməliyyatında peşmərgə aktiv iştirak etmir. Digər qüvvələr isə onsuz da sayca az və zəifdir. Əməliyyatın əsas zərbə qüvvəsi ola biləcək "Həşdi Şabi" isə Mosul əməliyyatına daxil edilməyib. ABŞ və Türkiyə könüllü qüvvələrin Mosul əməliyyatına qatılmasını istəmir. Əsas arqument kimi Həşdi Şabinin şiə silahlılar olması və Mosulda isə sünnilərin çoxluqda olması və şəhərdə məzhəbi toqquşmaların, zorakılıqların olması göstərilir. Ancaq məlum məsələdir ki, burda başqa amillər var. Məsələ ondadır ki. Həşdi Şabinin tərkibində 15 min nəfərdən çox sünni əsgərlər də var. Üstəlik əvvəlki əməliyyatlarda belə bir məzhəb qisası olmayıb. Əsas problem başqadır.

Əsas narahatlıq İrandır. Türkiyə və Qərbdə hesab edirlər ki, Həşdi Şabi şiə könüllülərdir və onların təşkilində İranın, konkret olaraq SEPAH-ın "Qüds" xarici əməliyyatlar briqadasının komandiri Qasim Süleyman iştirak edib. Türkiyədə Həşdi Şabini açıq şəkildə İranın təsiri altında olan ordu hesab edirlər. Həşdi Şabinin Mosul əməliyyatına qatılması bölgədə İranın təsirinin artması hesab edilir. Çünki digər qüvvələrlə müqayisədə Həşdi Şabilər daha yaxşı döyüşür, hazırlıqlıdırlar. Mosul əməliyyatına qatılsalar tezliklə şəhəri nəzarətə götürə bilərlər. Bu isə narahatlıq yaradır. Bu səbəbdən də Qərb ölkələri, ABŞ və Türkiyə İraq hökumətinə təzyiq edərək Həşdi Şabinin Mosul əməliyyatına qoşulmasına mane olur. Hazırda könüllülər Telafer ətrafında yerləşib əmr gözləyirlər.

Bir neçə gün əvvəl İraq parlamenti Həşdi Şabiyə ordu statusu verilməsi ilə bağlı qanun qəbul etdi. Ancaq görünür, İbadi üzərində Həşdi Şabi məsələsinə görə ciddi basqılar hələ də davam edir. İraqın baş naziri Mosul üzərində nəzarəti ələ almaq üçün könüllü qüvvələri cəlb etməyə çalışır. Əks halda, əməliyyat uzanacaq.

❑ **Kənan RÖVSƏNOĞLU**

YENİ MÜSAVAT
N 272 (6593) 7 dekabr 2016

# Ən ziddiyyətli hadisələrin yaşandığı Xoruz illəri...

## ...Hitler məğlub olub; AXC hakimiyyəti süquta uğrayıb...

**Meymun ili olan 2016-cı il həm ölkəmiz, həm də dünya üçün xeyli gərgin il oldu. Dünyada baş verən gözlənilməz hadisələr, proqnozlaşdırılmamış siyasi proseslər, ölkələr arasındakı gərginliklər, maliyyə böhranı, Azərbaycanda davam edən bahalaşma, manatın daha da qiymətdən düşməsi və sairə bunu deməyə əsas verir.**




Qarşıdan isə 2017-ci il - Xoruz ili gəlir.

Bəs Xoruz ilində Azərbaycanı və dünyanı nələr gözləyir? Ötənlərdə Xoruz illəri nələrlə yadda qalıb?

Astroloqlar 2017-ci il barədə hələlik proqnoz vermək istəməsə də, Xoruz illərində baş verən hadisələrə nəzər yetirəndə görürük ki, bu dövrlərdə ən ziddiyyətli hadisələr yaşanıb; hakimiyyət dəyişiklikləri bir-birini əvəz edib, dünyanın tarixini dəyişən olaylar baş verib.

Onlardan bir neçəsini təqdim edirik.

**1933-cü il.** Bu ildə Adolf Hitler hakimiyyətə gəlib. Berlindəki "Terrorun xəritəsi" məlumat-sərgi mərkəzinin əməkdaşı, tarixçi Klaus Hessenin dediyinə görə, Hitler əslində II Dünya müharibəsinə hakimiyyətə gəldiyi həmin ildən başlayıbmış:

"Hitlerin bütün səyləri Versal Sülh Müqaviləsinə yenidən baxdırmaq, "Böyük Almaniyanın" Avropadakı hegamoniyasını bərpa etmək, Almaniyanı davamlı müharibəyə hazırlamaq üçün sənaye ölkəsinə çevirmək idi".

1933-cü ildən söz düşmüşkən, bu il həm də dünyada ukraynalıların Qolodomor adlı soyqırım faciəsi ilə tarixə düşüb. Qolodomor sözü "aclıq" və "öldürmək" sözlərinin birləşməsindən əmələ gəlib. Stalin milli elitanın və sosial dəstəyin ləğv edilməsi yolu ilə Ukrayna milli ideyasının aradan qaldırılması üçün ukraynalılara qarşı açıq müharibəyə başlamışdı. Həmin ildə 25 mindən çox ukraynalı aclıq nəticəsində dünyasını dəyişib, 125 min insan isə repressiyaya məruz qalıb.

1933-cü ildən hazırlıqlarına başlanan, 10 milyonlarla insanın ölümü ilə nəticələnən II Dünya müharibəsi sonrakı Xoruz ilində, 1945-ci ildə Antihitler Koalisiyasının qələbəsi ilə başa çatıb. Həmin ilin 30 aprelində Hitler həyat yoldaşı Eva Braunla birlikdə bunkerlərin birində intihar edib.

Qeyd edək ki, bu müharibə dünya siyasətinin dönüş nöqtəsi oldu, dünya arenasında qüvvələrin yeni paylaşmasını ortaya qoydu. Dünya siyasi xəritəsi dəyişikliyə uğradı. Təkcə Almaniya və Yaponiya deyil, həmçinin koalisiya tərkibinə daxil olan İngiltərə və Fransa da öz beynəlxalq mahiyyətini itirdi. Müharibədən sonra avtoritet mövqeyini bərpa edən ABŞ dünyada aparıcı ölkələrin başında durdu və elə həmin il Yaponiyanın Naqasaki şəhərinə atom bombası atması ilə tarixə düşdü. Hadisə nəticəsində 36 mindən çox insan həlak olmuşdu.

Tarixə nəzər salanda o da məlum olur ki, dövlətləri sarsıdan terror aktları, zəlzələlər də Xoruz illərinə tez-tez təsadüf edir.

Azərbaycan tarixi üçün mühüm hadisələr ilə yadda qalan Xoruz ili 1993-cü ilə təsadüf edir. Bir il öncə hakimiyyəti ələ alan Azərbaycan Xalq Cəbhəsi 1993-cü ildə öz mövqeyini itirdi, hakimiyyətə isə Heydər Əliyev gəldi.

Sonrakı Xoruz ilində, yəni 2005-ci ildə ölkədə Milli Məclisə seçkilər keçirilib. Seçkilərdə iqtidar qələbə qazanaraq 62 deputat mandatı əldə etmişdi...

Qeyd etdiyimiz kimi, astroloqlar qarşıdakı illə bağlı proqnoz verməyə tələsməsələr də, bəziləri qısaca da olsa Xoruz ilinin bu dəfə də sakit keçməyəcəyini, siyasi təlatümlər yaşanacağını, bahalaşmanın, münaqişə və boşanmaların sayının daha da artacağını qeyd edirlər.

❑ **Xalidə GƏRAY**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Həbsdə olan iş adamının məhkəməsi təxirə salındı-oğlu öldüyü üçün...

**Narkotik alverində və qanunsuz silah saxlamada təqsirləndirilən iş adamı növbəti dəfə hakim qarşısına çıxarılıb. O, Bakıda fəaliyyət göstərən şadlıq saraylarından birinin sahibidir.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində iş adamı Nəriman Əliyevin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.

Məhkəmənin əvvəlində hakim Mirzə Xankişiyev təqsirləndirilən şəxsə başsağlığı verib. Buna səbəb bir neçə gün əvvəl Nəriman Əliyevin oğlunun dünyasını dəyişməsi olub.

20 yaşlı Əliyev Asim Nəriman oğlu qardaşı Şəhriyar Əliyevlə birlikdə 10 SL 222 dövlət qeydiyyat nişanlı "Mercedes" markalı avtomobillə hərəkət edərkən qəfildən halı pisləşib. A.Əliyev hava almaq üçün qardaşından avtomobili saxlamasını xahiş edib. O, körpünün üzərində dayanarkən yıxılıb. Ş.Əliyev qardaşını xəstəxanaya çatdırsa da onun həyatını xilas etmək mümkün olmayıb. Məlumata görə, o, infarkt keçirib.

Dekabrın 10-da A.Əliyevin toy məclisi olacaqmış.

Məhkəmə prosesi şahidlər gəlmədiyindən dekabrın 9-na təxirə salınıb.

İş adamının vəkili Adəm Məmmədov ötən proses verdikləri vəsatətlərin təmin olunduğunu, lakin şahid kimi dindirilməsini istədikləri şəxslərin məhkəməyə gəlmədiklərini bildirib. "Müvəkkilim istintaqa ifadə verərkən vəkili olmayıb. Onun müdafiə hüququ pozulub. Ancaq istintaqa ifadəsinin sonunda İlqar adlı vəkilin imzası var. Həmin vəkilin və Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı şöbəsinin rəisi Əliaslan Ağayevin məhkəmədə ifadə verməsini tələb edirik"- deyə vəkil açıqlamasında bildirib.

Qarabağ müharibəsi veteranı olan N.Əliyev Bakıxanov qəsəbəsindəki "Şəhriyar" şadlıq evinin sahibi, "Qarabağ Broyler" MMC-nin rəhbəridir.

O, Cinayət Məcəlləsinin 234-cü (qanunsuz olaraq narkotik vasitə əldə etmə, saxlama, satma) və 228-ci (qanunsuz olaraq odlu silah saxlama) maddələrinə əsasən ittiham olunur.

❑ **İ.MURADOV**

## Həbsxanalarda nə baş verir-4 məhkum ölüb

**Azərbaycanda son beş gün ərzində 4 məhkum vəfat edib. APA xəbər verir ki, Penitensiar Xidmətin Müalicə Müəssisəsində müalicə olunan məhkumlar - 1949-cu il təvəllüdlü Saraxanım Babayeva, 1976-cı il təvəllüdlü Nurlan Həmidov, 1970-ci il təvəllüdlü Sədaqət Musayeva və 1962-ci il təvəllüdlü Marayev Yevgeni dünyalarını dəyişib.**

Qeyd edək ki, dünyasını dəyişən məhkumlardan S. Babayeva tanınmış falçıdır. O özünü "ilahi qüvvəyə malik falçı" kimi təqdim edərək müxtəlif şəxslərin etibarından sui-istifadə edib, onları aldadıb. Törətdiyi cinayət əməlinə görə S.Babayeva Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq) maddəsi ilə təqsirləndirilərək 7 il müddətinə azadlıqdan məhrum edilmişdi.



## Bakıda 19 yaşlı oğlan özünü asaraq intihar edib

**Bakıda intihar hadisəsi baş verib. Hadisə Sabunçu rayonu Ramana qəsəbəsi, Şuşa şəhərciyi 2-ci sahədə yeni tikilidə baş verib. Belə ki, 1997-ci il təvəllüdlü Muradov Çərkəz Eldəniz oğlu özünü evin həyətində hasardan iplə asaraq intihar edib.**



# 4 nəfərlik ailənin aylıq yaşam norması - Azərbaycanda və dünyada

## Natiq Cəfərli: "Ailələr məcburiyyətdən ərzaq səbətində avtomatik olaraq ixtisarlar edir"

**Ərzaq məhsullarının bahalaşmasının ardından kommunal xidmətlərin də qiyməti artdı. Lakin maaş və təqaüdlərdə heç bir artım müşahidə edilmir. İnsanların aylıq orta əmək haqqını nəzərə alsaq, bir ailənin hazırkı qiymət şərtləri ilə bir ayda normal yaşayışını təmin edə bilməsi mümkünsüzdür.**

Sosioloqlara görə, bir insanın xoşbəxt və qayğısız yaşaması üçün ildə 75 min dollar qazanması lazımdır. Bu isə ayda 6250 dollar edir ki, o da Azərbaycan reallığında mümkünsüzdür. Maraqlıdır, bəs hazırkı şəraitdə 4 nəfərdən ibarət, orta statistik bir ailənin normal yaşaması üçün nə qədər vəsait lazımdır?

**İqtisadçı ekspert Natiq Cəfərli** bundan ötrü aylıq 1500 manat lazım olduğunu dedi: "Hökumət Azərbaycanda köhnəlmiş və reallığı əks etdirməyən bir hesablama qaydaları müəyyən edib. Həm yaşayış minimumu, həm minimum istehlak zənbilini köhnə yanaşma ilə hesablayır və Azərbaycanda çox kiçik rəqəmlər alınır. Bunun da məntiqini anlayıram. O mənada ki, hökumət özü belə rəqəmlərlə oynayaraq, yaşayış minimumunu aşağı rəqəmlərlə göstərərək müəyyən dərəcədə büdcədən maliyyələşən insanların həm maaşlarını, həm də təqaüdlərini kəskin şəkildə artırmamaq üçün bu addımı atır. Yəni yaşayış minimumu artsa, avtomatik olaraq həm təqaüdlərdə, həm də maaşlarda ciddi artım müşahidə olunmalıdır. Azərbaycanda alternativ hesabatlar aparmaq çox çətin olduğu üçün biz məcburən qonşu ölkələrin praktikasına müraciət edə bilərik. Məsələn, bu yaxınlarda Türkiyədə hesablamalar aparılıb. Təxminən 4 nəfərdən ibarət standart türk ailəsinin minimum xərcləri ay ərzində təqribən 3100 lirəyə yaxın bir məbləğ müəyyənləşdirilib. Bura kommunal xərclər, ərzaq və digər xərclər daxil edilib. Buna uyğun götürsək, Azərbaycan reallığında indiki məzənnə ilə götürdükdə bu, təqribən 1500 manat edir. Bu da Azərbaycanın indiki reallığı ilə uyğunsuzluq təşkil edir. Yəni Azərbaycanda orta aylıq əmək haqqı təqribən 490 manata yaxındır. Minimum dolanışıqdan, standartlardan üç dəfə aşağı bir orta aylıq əmək haqqı varsa, deməli, Azərbaycanda bunun hesablanması ilə bağlı, ödənişlərlə bağlı ciddi problemlər var. Ona görə də Azərbaycanda son zamanların qiymət artımı, kommunal xərclərin artımı, valyutanın dəyər qazanması, milli valyutamızın ucuzlaşması, idxal mallarında ciddi bahalaşmanı nəzərə alsaq təbii ki, yaşayış minimumunun həddi ən azı Türkiyə qaydalarına görə hesablansa, 4 nəfərlik bir ailəyə 1500 manat civarında pul lazımdır".

**İndiki şərtlərdə ərzaq səbətindən nələrisə ixtisar etməklə ailələrin dolanışığını təmin etdiyini deyən N.Cəfərli insanların daha ucuz ərzaq məhsullarına üstünlük verdiyini bildirdi:** "Ailələr ərzaq səbətində avtomatik olaraq ixtisarlar edir. Məsələn, ət bahalaşdıqca ailələr daha az ət istehlak etməyə məcbur olurlar. Əsasən daha ucuz ərzaq məhsullarına - makarona, vermişelə, undan hazırlanmış məhsullara üstünlük verilir. Bunların qiyməti nisbətən ucuzdur və doyumluluğu kifayət qədər yüksəkdir. Yəni avtomatik olaraq insanlar onsuz da öz ərzaq zənbilindən daha bahalı məhsulları çıxartmalı olurlar. Yəni kərə yağını azaldıb onun əvəzinə daha ucuz bitki yağlarından istifadə edirlər, ət məhsullarını azaldırlar. Bütün bu məcburiyyətdən doğan ərzaq zənbilində dəyişikliklər onsuz da baş verir. Çünki insanlar bu addımı atmağa məcburdurlar".

Ümumiyyətlə, dünya ölkələrində həftəlik ərzaq məhsullarına xərclənən pula baxsaq, bunun Azərbaycandakından dəfələrlə çox olduğunu görərik. Təbii ki, bu ölkələrdə əmək haqları olduqca yüksəkdir. Məsələn, Yaponiyada 4 nəfərlik ailə üçün həftəlik bazarlıq etməyə 320 dollar, Çində 155 dollar, Fransada 420 dollar, Avstraliyada 380 dollar xərcləyirlər. Amerikalılar işdə olarkən fast food yeməklərinə pul xərcləməsələr, 4 nəfərlik ailə üzvləri üçün həftəlik ərzaq məhsullarına 340 dollar çatar. Almanlar da yeməklərinə az pul xərcləmirlər. Ailə başçısı 4 nəfərlik ailə üzvlərinə bir həftəlik bazarlıq edəndə 500 dollardan artıq pul Polşada təxminən 180-200 dollar xərcləməklə 4 nəfərlik ailənin həftəlik ərzaq tələbatını ödəmək mümkündür. Ekvadorda evin kişisi həftədə 35 dollar qazana bilirsə, 10 nəfərlik ailəsinə bir həftəlik bazarlıq etməsi problem deyil. Daha çox banan, kartof, kələm və digər meyvə tərəvəzlərə üstünlük verən Ekvador sakinlərinə həftəlik ərzaq məhsulları üçün 35-40 dollar bəs edir.

❑ **Günel MANAFLI**

# Avropada kommunal xərclər siyahısı

## Avropadakı azərbaycanlılar faktlarla danışır; "Burda aylıq məvacib ən aşağı 2 min dolların üstündədir, kommunal xidmətlərə 150-200 dollar ödəyirəm"

**Hazırda kommunal xərclər Azərbaycan əhalisinin ən çox müzakirə etdiyi, şikayətləndiyi mövzudur. İnsanlar qaz xərcinin artmasından dolayı son günlər olduqca gərgin günlər keçirirlər. Hökumətin bəzi məmurları isə cəmiyyəti bu artımın normal olduğuna inandırmaq üçün daha çox xarici ölkələrdən nümunə gətirirlər. "Avropada insanlar kommunal xidmətlər üçün daha çox pul ödəyir". Yəqin ki, bu arqumenti tez-tez eşidirsiz.**

"Yeni Müsavat" Avropada yaşayan bəzi azərbaycanlılardan bu məsələni detalları ilə öyrənib. Kommunal xərclər üçün nə qədər pul ödəyirsiz? Təxmin edildiyi kimi, maksimum həddədirmi?



**İsveçdə yaşayan Rahib Kazımlı bildirdi ki, onlar ümumiyyətlə qazdan istifadə etmirlər:** "Düzü, İsveçdə yaşadığım bu 12 ildə bir dəfə də olsun hardasa təbii qaz yandığını görməmişəm. Burda mənzillərdə elektriklə işləyən xüsusi sobalar qoyulub və yeməklər onda bişirilir. Yaşadığım mənzil 4 otaqdan ibarətdir və sahəsi 98,5 kvadrat metrdir. Aylıq elektrik xərcim 30-50 avro arasında dəyişir, yayda qışa nisbətən az ödəyirik. Yeri gəlmişkən, hələ indinin özündə də elektrik sayğacının harada yerləşdiyini bilmirəm və onun üzünü görməmişəm, sadəcə, hər 2 aydan bir faktura alır və hesabı internetlə ödəyirəm. İstilik, su və digər xidmətlər kommunal xərcə daxildir, yəni ayrıca ödəniş etmirəm, suyun sayğacı yoxdur, isti və soyuq suyu nə qədər istəsəm işlədə bilərəm, amma təbii ki, bu məsələdə israfçılıq da etmirik".

**R.Kazımlı bildirdi ki, mənzillərdə istilik 20-25 dərəcə avtomatlaşdırılıb. Yəni əgər hətta avqust ayında belə bayırda havanın temperaturu 15 dərəcədən aşağı düşərsə, xüsusi ötürücüdən verilən siqnal istilik sistemini işə salır:** "Nəzərə alın ki, ümumi mənzilə görə ödədiyim məbləğ kifayət qədər böyükdür və bu səbəbdən də ilk baxışda xərclərim az görünsə də əslində elə deyil".

**İsveçrədə yaşayan mühacir Hacı Hacılı bildirdi ki, bu məsələ kirayə müqaviləsində öz əksini tapır:** "2500 kw/Saat üçün 22-23 sent, 4500 kw/Saat üçün 18-19 cent, 7500 kw/s üçün 17 sent ödəyirəm. Bunlar hər kilovat üçün müəyyənləşdirilmiş qiymətlərdir. Kobud desək, hər 3 ayda 150-200 dollar pul ödəyirəm mən. Amma məndə səhərdən axşamacan elektrik qoşulu olur. Elə ailələr var ki, üç aya heç 30-40 dollar ödəmir".

**Norveçdə yaşayan Natiq Ələsgərov bildirdi ki, ödəyəcəyin məbləğ təbii ki, sərfiyyatın həcmi ilə bağlıdır və bunu sayğac müəyyənləşdirir:** "Mən işıq üçün evdə ay yarıma, iki aya 300 kron ödəyirəm. Bu da təxminən 34 dollar edir. Qaz işlətmirik. Evlərdə isitmə sistemidir. Bəziləri su ilədir, bəziləri işıqla. Su pulu ödədiyimi xatırlamıram. Bir şirkətlə müqavilə bağlamışıq. Onlar bizə bir çox kommunal xidmətləri göstərirlər. Məsələn, aşağıda paltaryuyan maşınlar qoyurlar və əhali ondan istifadə edir. Bundan başqa, yerləri təmizləyirlər. Kabel qoyublar, televiziya üçün. Aya 1600 kron ödəyirəm bu xidmətlər üçün. Buranın pulu ilə götürəndə qəpik-quruşdur. 3000 kron - 350 dollardır. Burda aylıq məvacib ən aşağısı 2 min dolların üstündədir".

**Bu ölkədə işsizlər daha çox şanslıdır. Onlara televizor, internet, işıq pulunu hökumət verir:** "Bundan başqa, 3 otaqlı ev veriblər, bütün ehtiyaclarını dövlət qarşılayır. Əlavə 1000 avro da pul verirlər aylıq. İşsiz bu müddətdə dil öyrənməyə gedir. Ona aid olan hər şeyin xərcini dövlət qarşılayır. Yemək pulu isə aylıq 500-600 dollar civarındadır. Müddət limiti yoxdur. Nə qədər işsiz qalsan, o qədər müddət həmin yardımı alacaqsan. Səni o müddət ərzində işlə təmin etməyə çalışırlar, dil öyrənməyin üçün təşviq edirlər. Məqsəd odur ki, həmin iş yerində özünə təcrübə qazanasan. Mən bu dəqiqə işdən çıxsam, aldığım maaşın 66 faizini 2 il boyunca mənə ödəyəcəklər. O müddət ərzində də deyirlər ki, gəl sosial idarəyə, filan iş var. Bir-iki ay kursa göndərirlər, başqa sahəni öyrənməyin üçün şans verirlər. Burda insan düşünmür ki, çörək pulu olacaq, ya yox. Onların qayğıları daha çox həyat yoldaşı ilə aralarındakı sevginin azalması və sair kimi mövzular barədədir (gülür)".

**Fransada yaşayan Könül Qasımova isə bildirdi ki, aylıq kommunal xərcləri 400 avro civarındadır. Onun sözlərinə görə, bura sahəsi 100 m2 olan mənzilin isidilməsi, su, lift, binanin təmizlik işləri, zibil, binanın qarşısındakı parkın ağaclarına qulluq da daxildir:** "Bizim məhəllədə qiymətlər bir qədər yuxarıdır. Çünki binalar 70-ci illərdə tikilib. Təzə binalarda isə xərclər azdır - 200 avro. Aylıq elektrik xərcimiz isə 50 avro civarındadır".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 272 (6593) 7 dekabr 2016



## Aeroportda sərnişinləri yubka geyinmiş donuz qarşılayır

Beynəlxalq San-Fransisko aeroportunda "psixoterapevtik donuz" fəaliyyətə başlayıb. "USA Today" qəzetinin verdiyi xəbərə görə, bu donuz sərnişinləri salamlamaq və onların stresini aradan götürməyə hesablanıb. Lilu ləqəbli donuz aeroportun Wag Brigade adlı komandasına qoşulub. Sonuncu 20 itdən ibarətdir və onların hər biri xüsusi formalı jilet geyiniblər. Jiletlərin üstündə isə "Məni sığalla" sözləri yazılıb. İtlər San-Fransisko aeroportunda 2013-cü ilin dekabrından xidmət göstərirlər. Heyvanlar aeroport ərazisində, terminalların arasında məşqçiləri ilə birgə gəzir və müxtəlif tryuklar göstərirlər. Hesab edilir ki, bu, yol yorğunu olan sərnişinlərin əhvalını yüksəltməyə hesablanıb.

Lilu isə qonaqları salamlamağı, onlara əl eləməyi və oyuncaq pianoda ifa etməyi bacarır. Bütün bu şounun sonunda isə o, izləyənlər qarşısında baş əyir. Lilunun sahibəsi Tatyana Danilova isə deyib ki, heyvan öz məharətini göstərib, alqış almaqdan məmnun olub. Sahibəsi mütəmadi olaraq heyvanın şəklini sosial şəbəkə vasitəsilə paylaşır.

## Böyük Britaniyanın ən yaşlı məhkumu 101 yaşındadır

Böyük Britaniya tarixinin bu günə qədər ən yaşlı məhkumu 101 yaşlı Birmenqem sakinidir. Onun 101 yaşı tamam olur. Bu barədə "Daily Mail" xəbər verib. Keçmiş yük maşınını sürücüsünü 1974-1983-cü illərdə yetkinlik yaşına çatmayan uşaqlara qarşı əxlaqsız hərəkətlər etməkdə suçlayırlar. Onun qurbanları iki qız, bir oğlan olub. Zərərçəkmişlər bir il öncə polisə müraciət ediblər. Araşdırmadan sonra ona 17 seksual təcavüz, uşaqlara qarşı 12 əxlaqsız xarakterli hərəkətlə bağlı ittiham verilib. Detallar açıqlanmayıb. İstintaq zamanı kişi etiraf edib ki, bu hərəkətlərdən bəziləri yadındadır. Amma o, bunların seksual xarakterli cinayət olmasını inkar edir. Bundan başqa, ilk məhkəmə iclasında məlum oldu ki, ittiham olunan şəxs yaxşı eşitmir, ona görə də ona məhkəmədə deyilənləri çatdıran bir nəfər lazım gəlib.



## Türmədən qaçmaq istədi, divara ilişdi

Braziliyada türmədən qaçmaq istəyən bir məhkum ilginc bir hadisənin qurbanı olub. Belə ki, o, türmənin divarları arasında ilişib. Rafaello Valadonun belə bir aqibətlə üzləşməsinin səbəbi onun kök bədəni olub. Hadisə dekabrın 3-də Seris bələdiyyəsində baş verib. Həmin vaxt braziliyalı türmədən öz dostları ilə birgə qaçmaq istəyib. Qaçışı divarda açılmış deşiyin köməyi ilə gerçəkləşdirmək planlaşdırılıbmış. Məhkumlardan biri qaçmağa nail olub. Amma Valado deşiyə özünü salsa da, nə qabağa, nə də arxaya doğru hərəkət edə bilib. Nəticədə isə nə özü qaça bilib, nə də digər yoldaşları. Valado kömək istəyərək qışqırmağa başlayıb və onun köməyinə türmə işçiləri gəlib.

Bir neçə saatdan sonra nəhəng məhkum deşikdən çıxarılıb. Onu türməyə çağırılan yanğınsöndürən xidməti xilas edə bilib. Türmədən birinci qaçan şəxsi yaxalamaq hələ ki, mümkün olmayıb.





## Qəfil varlanan adam.... dəli ola bilər

Bir anda çox böyük pullar qazanmaq beyni məhv edir. Amerikalı alimlər bu nəticəyə gəliblər. Onların fikrincə, bir anda böyük miqdarda lotereya udan şəxslərin beynində pulun da təsiri ilə ciddi dəyişiklik yaşanır, hətta həyatları alt-üst olur. Alimlər bunu sübut etmək üçün bir neçə il əvvəl Amerikada lotereyadan 558 milyon dollar udan Mark Hill və həyat yoldaşı Sindi üzərində araşdırma aparıb. "Discovery News"da yer alan xəbərə görə, Mark və Sindinin beyinləri hormon ifrazı nəticəsində yaşanan dəyişikliklərə görə yaxın zamanda normal bir beyindən fərqli reaksiyalar göstərməyə başlayacaq. İlk zamanlarda həddsiz miqdarda ifraz edilən dopamin adlı maddə daha sonra beyində qarmaşıq bir biokimyəvi təsir nəticəsində öz yerini gərginlik və depressiyaya verə bilir. Bu zaman iradəsi zəif olan adamların dəli olma ehtimalı da güclüdür. Alimlər onu da sübut edib ki, qısa vaxtda çox pula sahib olmaqla insan xoşbəxtlik yox, diqqət qazanır.




**QOÇ** - Ulduzlar günün birinci yarısında qeyri-adi hansısa addımı atmamağı tövsiyə edir. Əks təqdirdə, uğurlardan uzaq düşəcəksiniz. Sonrakı saatlarda isə sürprizlə rastlaşma ehtimalınız var.

**BUĞA** - Ulduzların düzümü enerjinizi daha çox fəaliyyət istiqamətinə yönəltməyi tövsiyə edir. Qarşılıqlı münasibətlərdə isə bacardığınız qədər ehtiyatlı olmalısınız. Çılğınlıq etməyin.

**ƏKİZLƏR** - Hədsiz dərəcədə uğurlu gündür. Nəzərdə tutduğunuz planların əksəriyyətinə yetişəcəksiniz. Maraqlı təkliflər, şəxsi büdcədə artım ovqatınızı xoş edəcək. Amma ən xırda detalları belə nəzərdən qaçırmayın.

**XƏRÇƏNG** - Bəxtinizdə çox düşərli bir təqvim dayanıb. Odur ki, nəyəsə cəhd edərkən hər an Ulu Tanrını başınız üzərində hiss edin. Yalnız bu halda özünüzü xoşbəxt hiss edəcəksiniz.

**ŞİR** - İxtiyarınızda olan bu təqvimdə sizin üçün günün birinci yarısı daha uğurlu olacaq. Çoxdan gözlədiyiniz bir təklifi ala bilərsiniz. Təxminən saat 14-dən sonra isə ayıq-sayıqlığınızı artırın.

**QIZ** - Perspektivli sövdələşmələr aparmaq istəyirsinizsə, vaxtı fövtə verməyin. Saat 11-dən başlayaraq paralel şəkildə aktivlik göstərin. Qərarlarınızda qəti olsanız, heç vaxt uduzmayacaqsınız.

**TƏRƏZİ** - Maddi problemlərinizin qabarmasına baxmayaraq, əsas gücünüzü sevgi amilinə yönəldin. Nəzərə alın ki, sizə ehtiyac duyanlar xoş bir sözünüzlə də kifayətlənə bilərlər. Səfərə isə çıxmayın.

**ƏQRƏB** - Yaxşı olar ki, əsas işlərə saat 12-dən sonra başlayasınız. Çünki əvvəlki ərəfə bir qədər qalmaqallı keçə bilər. Bu gün nüfuzlu və dəyərli insanlarla görüş keçirmək sizə səmərə verəcək.

**OXATAN** - Qarşılıqlı ünsiyyətdə olduğunuz hər kəslə ciddi davranın. Enerjinizi dedi-qodu və ya cəfəng söhbətlərə itirməyin. Doğma ünvanlara gedib istirahət etmək indi sizə çox lazımdır.

**OĞLAQ** - Maraqlı bir təqvim yaşayacağınız güman olunur. Əgər şərait olsa, işlə az məşğul olun. Çünki işdən kənarda daha çox uğurlarınız mümkündür. Bu gün ziyarətgaha getməyiniz yaxşı olar.

**SUTÖKƏN** - Qarşınızı kəsən maneələri dəf etmək üçün imkan qazanacaqsınız. Üstəlik, sevgi aləmində sürprizlərlə rastlaşacaqsınız. Səfərə çıxmaq, işgüzar söhbətlər aparmaq isə məsləhət görülmür.

**BALIQLAR** - Təəssüf ki, Göy qübbəsi ixtiyarınızda olan bu təqvimin mübahisəli keçəcəyini bəyan edir. Ələlxüsus da saat 14-17 aralığı əhvalınız pozula bilər. Özünüzü ələ alıb neytral mövqe tutun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## At üçün yarış kostyumu hazırladı

Britaniyanın Qlosterşir qraflığında dizayner at üçün kostyum hazırlayıb. Hazırlanma prosesində Emma Sendhem Kinq adlı dərzi adi insan üçün lazım olandan 10 dəfə artıq parçadan istifadə edib. "The Daily Mail"in xəbərinə görə, üç hissədən ibarət olan kostyum Morstid adlı at üçün hazırlanıb. O, bu kostyumla martın 15-də baş tutacaq yarışda çıxış edəcək. Dizayner kostyumun hazırlanmasına 4 həftə vaxt sərf edib. Yerli mediaya açıqlamasında isə deyib ki, dərzilik karyerası boyunca ən çətin iş bu olub. At kostyumunun hazırlanması üçün ona Harris Tveed markalı parçadan 18 metr lazım gəlib. Xatırladaq ki, bu markalı parça Şotlandiyanın Harris adasının sakinləri tərəfindən əllə hazırlanır və dünyanın 40 ölkəsinə idxal olunur, yetərincə bahalı parça sayılır.



Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750